XASAY

I

Üçüncü rübün nömrələri yoxlandıqdan sonra məktəb ən fəal əlaçı şagirdlərin və onların valideyni şərəfinə təntənəli bir müsamirə verməyi qərara almışdı. Axırıncı dərs bitmək üzrə idi. Çağırışlar siniflərdə şirin-şirin paylanırdı. Sinif rəhbəri Kamil müəllim əlində çağırış vərəqələri öz sinfinə girincə bütün sinif yerindən oynadı. Kamil müəllim sinfi zor-güc sakit etdi və qırmızı rəngli çağırış vərəqəsini Xasaya uzadıb "Al, bu sənindir", dedi. Sonra çağırışları bir-bir payladı.

Artıq dərs bitmiş, zəng vurulmuşdu. Müəllimlər bayıra çıxınca bütün siniflər sel kimi həyətə axdı.

Xasay bir əlaçı iftixarı ilə əlində çağırış vərəqəsi bacısı Zinyətlə bərabər sevinə-sevinə evə gəldi. həyətə girdiyi zaman atası Balakişi əlində süpürgə bağçanı süpürürdü. Badam da ağaca söykənib gülə-gülə onunla danışırdı. Xasay qaça-qaça atasının yanına gəldi, çağırışı sevinə-sevinə Balakişiyə uzadıb:

– Ata, sənə çağırış gətirmişəm, məktəbimizdə müsamirə var – dedi.

Balakişi süpürgəni çiyninə söykədi, çağırışı alıb kəlmə-kəlmə oxudu. Sonra sevinclə pıçıldayan gözlərini Xasaya dikərək:

– Oğlum, bu müsamirəyə bütün atalarmı çağırılmışdır? – deyə soruşdu.

Xasay gülə-gülə:

– Bəli ata, ancaq əlaçı tələbələrin çağırışları qırmızı rəngdədir – deyə cavab verdi.

Balakişi gözlərini çağırışdan çəkməyir, köksü şişir, atalıq qüruru artır, üzü, gözü işıqlanır, dodaqları gülümsəyirdi. Bu gecə bir əlaçı atası sifəti ilə müsamirəyə çağırılırdı. Ona bundan böyük bir bəxşiş nə ola bilərdi?!

Badam şən və şaqraq bir səslə Zinyətdən soruşdu:

– Sənə də çağırış verdilərmi?

Zinyət dodaqlarını büzüb çiynini çəkərək dedi:

– Mənimki adi çağırışdır, üstündə heç adım da yazılmayıb.

Bu zaman Xasayın sinif yoldaşı Mürsəl də qoltuğunda kitab həyətə girdi. Badam üzünü Xasaya tutub soruşdu:

– Qonşumuz Mürsələ də çağırış verdilər?

– Ona Zinyətdəki çağırışdan veriblər.

Balakişi çağırışın o yan-bu yanına bir daha diqqətlə baxdıqdan sonra qoltuq dəftərinin içinə qoydu və süpürgəni götürüb işinə davam etdi. O çox böyük bir həvəs və maraqla çalışırdı. Qoynunda sevə-sevə saxladığı çağırışı o gün axşama qədər bir çox adama göstərdi. Hamı ona: "Balakişi, bəxtiyarsan, Xasay kimi oğlun var" – deyirdi.

Doğrudan da, Xasay misli az olan uşaqlardan idi ki, onu görən, tanıyan sevməyə bilməzdi; təbiətini saf və parlaq üzündən bilmək olurdu. Bacısı Zinyətlə bərabər məktəbə davam edir, evdə, həyətdə olduğu kimi məktəbdə də özünü müəllimlərinə və bütün yoldaşlarına sevdirirdi. Məktəbdən evə gəlincə kitab çantasını yerindən asıb həyətə qaçırdı. Həyətdə yoldaşları ilə oynar, bağçada atası ilə bərabər çalışıb çiçəkləri suvarar,. alaq edərdi. Xasay hər şeydən çox dərslərinə fikir verir, boş vaxtlarında da ictimai işlərdə çalışırdı. Onu hər kəsdən artıq atası Balakişi ilə sinif rəhbəri Kamil müəllim sevirdi.

Balakişi ailə həyatını, uşaqlarına tərbiyə vermək yollarını düşünür, gözəl anlayırdı. Onun təmiz əxlaqının, gözəl rəftarının da Xasaya ayrıca bir təsiri vardı. Balakişi öz vəzifəsində olduqca ciddi, doğru, çalışqan bir insan idi. Qapıçılıq etdiyi böyük evin alt qatında iki kiçik otaqda yaşayıb sadə, fəqət bəxtiyar bir həyat sürürdü, küçədə, həyətdə, bağçada əlində bel və süpürgə gecə-gündüz işləyirdi.

Ancaq Xasayın anası badam savadsız, bacarıqsız, yeni həyata yad və iradəsiz bir qadın idi. O, ev işlərini görür, hərdən qonşulara su daşıyırdı. Onun bu halı Balakişini çox düşündürürdü. Özü savad kursuna girdiyi zaman: "gəl bərabər gedək" deyə arvadına da təklif etmişdi. Badam qaş-gözünü oynadaraq ona acı-acı güldükdən sonra: "Get, ağlına dua yazdır, bu yaşda oxuyub doktor ha olmayacağam" – deyə rədd etmişdi. Lakin Balakişi inad edib zor-güc onu kursa yazdırdı. Badam ancaq dörd-beş ay kursa getdi. Hesab dərsləri ona çətin gəldiyindən kursdan qaçdı.

Badam vücudca sağlam və gözəl bir qadın idi. Su daşıyarkən əllərində boş vedrə orda-burda laqqırtı etməkdən zövq alır və arabir şən qəhqəhələri pərdə-pərdə yüksələrək ətrafa yayılırdı.

Badamın evinə bitişik Qızyetər adlı qoca bir qonşusu vardı. Onun dul qızı Züleyxa fabrikdə işləyir, üç nəvəsi də məktəbdə oxuyurdu. Böyük nəvəsi Mürsəl Xasayla bir sinifdə idi.

Züleyxa evdə olmayanda arabir Qızyetərin yanına Rəcəb adlı orta yaşlı, şişman bir kişi gəlirdi. Onun kim olduğunu, nə iş gördüyünü kimsə bilmirdi. O bu evə gec-gec gəlir, Qızyetərlə oturub uzun-uzadı yavaş-yavaş danışırdı.

Bir gün Rəcəb Qızyetərlə qapı ağzında oturub söhbət edirdi. Balakişi həyəti süpürürdü. Badam da əllərində boş vedrə iri bir ağaca söykənib Balakişiyə bir çox şeylər anladır, gözü ilə Rəcəbi ona göstərib deyirdi:

– Zalım oğlunun bir görkəminə bax, elə bil çaxır tuluğudur, eni ilə boyu birdir. Əl-ayağını bağlayıb top kimi bir dağdan başı aşağı yuvarlasan görəsən harada dayanar?

Badam bu sözləri deyib şaqqıltı ilə güldü. Rəcəb uzaqdan Badamı mənalı baxışlarla süzüb Qızyetərə dedi:

– Pasport işim düzəldi. Mənzili olan bir arvad da ələ keçirə bilsəm, daha heç qorxum olmaz. Oğlu da diribaşdır, yaxşı ov tulasıdır.

II

Axşam olmuş, işıqlar yanmışdı. Əlaçı tələbələrin ata-anaları və çağırılmış başqa qonaqlar məktəbin şüşəbəndində qaynaşırdı. Bu əmək və təhsil bayramında hamı şən və bəxtiyar görünürdü. Sinif rəhbəri Kamil müəllim keçərkən Xasayı görüncə ona yaxınlaşdı. Balakişi və Badamla görüşdü, Xasayın başını əli ilə oxşayaraq:

– Sinfin nəhəngləri içində birincidir – dedi.

Balakişi Kamil müəllimə:

– Sizin zəhmətinizin meyvəsidir – deyə cavab verdi.

Orkestr çaldı. Zəng vuruldu, qonaqlar zala dolub öz yerində oturdular. hamı gözünü səhnəyə dikib səbirsizliklə pərdənin açılmasını gözləyirdi. pərdə yavaş-yavaş qalxdı. Ən fəal əlaçı şagirdlər məktəbli formasında səhnədə yarımdairə təşkil etmiş, müdir də ortada üzü salona qarşı durmuşdu. Zal coşdu, qızğın və sürəkli alqışlar ətrafı bürüdü. Müdir qısa və gözəl bir nitq söylədi. Nitqində öz uşaqlarının tərbiyə və əxlaqına diqqət etməyən ata və analardan şikayət edərək dedi:

– Bəzi tənbəl, bacarıqsız və ictimai tərbiyəsi zəif olan analar uşaqlarını başdan sovmaq üçün məktəbə verir, hər zəhməti məktəbin üzərinə atır. Bu analar öz uşaqlarının tərbiyəsinə, təmizliyinə əsla əhəmiyyət vermir, bu günün tələblərini, istəklərini öyrənmək və anlamaq istəmir. Biz hər ailəni, onun tərbiyə vermiş olduğu uşağından tanıyırıq. Tərbiyəsiz ata, ana və onların yaramaz uşaqları bu günkü quruluşumuz üçün yaramaz ünsürlərdir. Biz onların yolunda ilan kimi qabıq qoyuruq.

Sonra o, üzünü səhnədəki əlaçılara çevirib dedi:

– Gənc sosialist ölkəmiz bu gün bizdən belə qüvvətli, ciddi və sağlam bir nəsil tələb edir.

Zal yenidən coşdu. Müdir əlaçıları bir-bir zaldakılarla tanış etdi. Məktəbin pioner təşkilatı və mədəniyyət bürosu tərəfindən hər şagirdə ayrı-ayrı bəxşişlər verildi. Xasaya mişar, çəkic, rəndə, kiçik balta, burğu və bu kimi dülgər şeyləri bağışlandı.

Müsamirə çox maraqlı keçdi. idman nömrələri göstərildi, mahnılar oxundu, çalğı çalındı, oyunlar oynandı. O gecə qonaqlar şən və dadlı bir xatirə ilə evlərinə döndülər.

III

Bu gün Xasay evə yenə çox şən dönmüşdü. Üzü gülür, qəlbi gülürdü. İçəri girincə zalım bir təsadüf onun sevincini bir anda söndürdü. Balakişi və Badam evdə yox idi. Bacısı Zinyət qapı ağzında durub ağlayırdı. Xasay Zinyətə yaxınlaşıb soruşdu:

– Nə var, niyə ağlayırsan?

Zinyət cavab vermədi. Xasayın qəlbi şiddətlə çırpındı. Zinyətin ətəyindən çəkərək:

– De görüm niyə ağlayırsan? – deyə təkrar soruşdu.

Zinyət gözünün yaşını silə-silə:

– "Heç..." – dedi.

– Necə heç... de görüm nə olub?!

– Atam tramvaydan yıxılıb deyirlər.

Xasayın qəlbi yerindən oynadı: "Hanı atam?!" – deyə dəli kimi bağırdı.

– Xəstəxanaya apardılar, anam dalınca getdi.

Xasay bunu eşidincə əlindəki kitabları pəncərəyə atıb qapıdan çıxdı, yenə tez dönərək:

– Hansı xəstəxanaya? – deyə dumanlı gözlərini bacısına dikdi.

– Bilmirəm!

Xasay yaxındakı xəstəxanaya getdi. Bir saat o yan, bu yanda dolaşdı. Qabağına çıxandan atasını soruşdu, hər şəfqət bacısına qəlbini açdı. Atasından xəbər verən olmadı. Ürəyi çırpırdı. Qəlbi kövrəlib ağlamaq istədi. Özünü zor-güc saxlaya bildi. Bu zaman yanından keçən gənc bir həkimə yanaşdı. Gözləri yaşlar içində atasını ondan soruşdu. Həkim əlini onun çiyninə qoyub dedi:

– Şəhərdə xəstəxana çoxdur. Böyüklərdən birinə söylə, onun hansı xəstəxanada olduğunu telefonla soruşub öyrənsin.

Xasay oradan küçəyə çıxdı. O indi telefon axtarırdı... Lakin haraya getsin? Kimin yanına getsin?

Birdən-birə məktəbdə telefon olduğunu xatırlayıb tez oraya yüyürdü. İçəri girdikdə sinif rəhbəri Kamillə rastlaşdı. Kamil müəllim onu pərişan və kədərli görüncə heyrətlə soruşdu:

– Xasay, nə var?

Xasay özünü saxlaya bilmədi, hıçqıra-hıçqıra ağlamağa başladı. Zor-güc özünü sakit etdi. Kamil əli ilə onun başını oxşayaraq:

– Nə olmuş, Xasay? – deyə təkrar soruşdu. Xasay əhvalatı ona anlatdı. Kamil müəllim tez telefona yanaşdı. Bir-iki xəstəxana ilə danışdı. Sonra "Semaşko" xəstəxanasına zəng elədi. Balakişinin ora gətirildiyini və yarım saat əvvəl vəfat etdiyini xəbər verdilər. Kamil Balakişinin vəfatını Xasaydan gizlətdi.

– Atan Semaşko xəstəxanasındadır, qorxma, ürəkli ol, deyirlər yaxşıdır. Xəstəxana uzaqdır, sən ora gedə bilməzsən, qayıt evə, anan indi gələcək, əhvalatı sənə danışar.

Xasay gözləri yaşlı evə döndü.

IV

Atasının faciəli vəfatı Xasaya yaman təsir etmişdi. Anası Badam isə ona bu ağır günlərdə təsəlli verəcək bir halda deyildi. Onun gerilliyi, savadsızlığı yavaş-yavaş öz mənfi nəticələrini göstərməyə başladı. Badam Xasayı nə həqiqi bir ana kimi öz qanadları altına alıb dərdləri-

ni ona unutdura bildi, nə də doğru yol göstərib sağlam tərbiyə verə bildi. Xasay gündən-günə əsəbi, şıltaq və yaramaz bir uşaq olurdu. Badam bunu görə-görə bir çarə düşünmürdü.

Balakişidən sonra Badamın özü də çox dəyişmişdi. Həyat və təbiətlə çarpışmaqdan aciz olan bu qadına hər şey çətin görünürdü. Balakişinin yerinə qapıçılıq vəzifəsini əvvəlcə ona təklif etdilər, "Mən bacarmaram" – deyə qəbul etmədi.

Kamil müəllim Xasayın üzərində rəhbərliyini bir qat daha artırmışdı. Bir gün yenə təsəlli vermək və maddi həyatlarını yoluna qoymaq üçün evlərinə getdi. Badam ilə çox danışdı, tikiş fabrikində, yaxud başqa fabriklərdə ona istədiyi vəzifəni tapmağa söz verdi. Badam dodaqlarını büzərək:

– Yox, qardaş, mən bacarmaram – deyə qəbul etmədi. Badamı zavodlar, mədənlər, fabriklər çağırdığı halda, o öz köhnə sənətindən əl çəkmədi. Su daşımaqdan aldığı azacıq pul onu və uşaqlarını yaşada bilməzdi. Müəllimin çarəsi kəsildi, uşaqları pansiona verməyi təklif etdi. Badam:

– Yox, mən uşaqlarımı gözümdən qoymaram – deyə buna da razı olmadı.

Kamil müəllim Badamla tanış olub onun təbiətini gözəlcə öyrəndi. Bu qadının öz uşaqlarına sağlam tərbiyə verə bilməyəcəyini anladı. Ona görə də mümkün olduqca uşaqları Badamdan uzaqlaşdırmaq yolunu düşündü. Bu xüsusda müdirlə görüşüb əhvalatı ətraflı olaraq ona anlatdı. Müdirin vasitəsi ilə Xasay və Zinyətə məktəb daxilində maaşlı kiçik bir vəzifə verdilər. Günorta yeməklərini də məktəb bufetindən təmin etdilər.

Balakişinin yerinə Rəcəb özünü qapıçı qəbul etdirmişdi. O, hər gün səhər tezdən gəlib, küçəni, həyəti süpürür və arabir Qızyetərlə xısın-xısın danışıb gedirdi. O kimdir? Hara gedir? Nə üçün gedir? Bunu həyətdə kimsə bilməzdi.

Bir gün Rəcəb əlində süpürgə ağaca söykənib Qızyetərlə danışırdı. Badam əllərində vedrə yaxından keçərkən onlara baxıb gülə-gülə:

– Siz hər gün gizli-gizli nə danışırsınız? Bunu bir bilsəydim – dedi.

Qızyetər gülə-gülə cavab verdi:

– Darıxma, bilərsən.

Bir az sonra Rəcəb getdi. Badam vedrələri doldurub oradan keçərkən Qızyetər onu çağırdı və mühüm bir söz söyləmək istəyən adam-

lara məxsus bir tövr aldı. Badam vedrələri yerə qoydu. Qızyetər gülümsəyərək əlini Badamın çiyninə qoydu və gözlərini onun gözlərinə dikib dedi:

– Ay qız, Badam, rəhmətlik Balakişi öləndən bəri sən gündən-günə solub-saralırsan. Uşaqlar da çox dəyişmişdir. Sənə mənim yazığım gəlir. Ay qız, su daşımaqnan ev dolanar? Evdə başı papaqlı gərəkdir. Özün də hələ cavansan. Mən səni Rəcəbə almaq istəyirəm, buna nə deyirsən?

Badam başını sinəsinə əyib bir qədər düşündü. Sonra əllərini qoltuğuna qoyub həzin bir səslə:

– Bəs bu yetimləri neyləyim? – dedi.

– Rəcəb o yetimləri də yola verər. Qoçaq və bacarıqlı kişidir.

– Yox, mən uşaqlarımı başqasının qoltuğuna verə bilmərəm.

– Belə demə, Badam, dolana bilməzsən, uşaqlar korluq çəkər.

– Qızın Züleyxa üç uşağı, üstəlik bir də səni necə saxlayır?

– Onun işi başqa, səndən Züleyxa olmaz! Sənə başı papaqlı gərəkdir.

Badam vedrələri götürüb yavaşca:

– Hələ baxaram – dedi.

Qızyetərin təklifi və sözləri Badamı çox düşündürdü. "Səndən Züleyxa olmaz" sözü ona çox təsir etmişdi. Xatırladıqca bu söz ona tikan kimi batırdı. O artıq yavaş-yavaş Qızyetərə haqq verməyə başladı. Sonra öz-özünə: "Balakişi o zaman məni savad kursuna apardı, oxuyub başa vursaydım, bu gün mən də bir yana çıxardım" – deyə təəssüf etdi.

Rəcəb son günlərdə Badamla tanış olmuşdu. Bir gün Rəcəb həyəti süpürüb gedirdi. Badam ondan soruşdu:

– Ay Rəcəb, sən hər gün həyət-bacanı süpürüb hara gedirsən?

Rəcəb gülə-gülə cavab verdi:

– Haram var, hara gedim. Kasıbçılıqdır, neyləyim, hamı sənin kimi olmaz ki...

– Mən necəyəm?

– Necə olacaqsan... İki, üç qonşuya su daşımağın quyruğundan tutub durursan. Bununla yaşamaq olmaz!

– Neyləyim, əlimdən başqa iş gəlmir.

– Çox yaxşı gəlir, canını işə verən adam deyilsən. Bu qapı ağzında qanfet, semişka, papros da sata bilməzsən? Hərəsindən bir az qazansan, uşaqlara yavanlıq olar.

Rəcəbin sözləri onu çox düşündürdü. Axırda o bir taxta qutu hazırladı, mağazalardan konfet, tum və papiros alıb qutunun içinə qoydu.

Səhər qonşulara su verdikdən sonra küçə qapısının ağzında oturub onları satmağa başladı. Rəcəb o gün süpürüb gedərkən qapı ağzında Badamı gördü.

– Bax, belə deyirəm, indi haqqın yolunu tapmısan, uşaqlar məktəbdən gələndən sonra sən dincəl, qoy Zinyət alver etsin. Xasay da ciblərini paprosla doldurub enli küçələrdə satsın; o sizdən daha çox qazana bilər.

Rəcəbin dediklərinə qulaq asa-asa Badam öz-özünə düşünürdü: "Maşallah, nə qoçaq və bacarıqlı kişidir. Dünyanın hər üzünü bilir. Bizim rəhmətlik Balakişi bu işləri bilməzdi".

Zinyətlə Xasay axşam işlərindən gec gəldiklərinə görə Badam Rəcəbin tapşırığını həyata keçirə bilmirdi. Ancaq Rəcəbin siması və qoçaqlığı Badamın xoşuna gəlirdi. O indi Rəcəbə getməyə razı idi. Bir gün Rəcəb şıq və təmiz paltar geyib gəlmişdi. O, o qədər gözəl geyinmişdi ki, zahirindən qapıçıya deyil, bir ziyalıya bənzəyirdi. Badam ürəyində: "Bax, kişi belə olar, işləyir də, dişləyir də" – deyə düşünürdü. Qızyetər yenə bir gün Badamın ağzını ararkən:

– Sən ki, məsləhət görürsən, sözüm yoxdur – deyə razı olmuşdu.

V

Rəcəb Badamın evində yaşamağa başlamış və bütün ailəni ovcunun içinə almışdı. O, Badamı öz təsiri altına elə salmışdı ki, onun hər sözü Badama bir qanun sayılırdı. Rəcəb özü də bunu hiss edir, Badamın zəifliyindən istifadə etməyə çalışırdı. O, Xasayın və Zinyətin dərsdən sonra vəzifədə çalışmalarına razı deyildi. "Onlar evdə daha çox qazana bilər" – deyirdi.

Rəcəb arzularını istədiyi kimi həyata keçirdi. Hər iki uşağı vəzifəsindən ayırdı. Günortadan sonra Xasayı papiros satmağa göndərdi. Bütün bunlar kiçik Xasaya təsirsiz qala bilməzdi. O, gündən-günə dəyişirdi. Özünü evdə, həyətdə, küçədə və məktəbdə olduqca sərbəst hiss edirdi. Hər gün anasından aldığı papirosları ciblərinə doldurub fit çala-çala böyük küçələrə gedirdi. Əvvəlləri çəkinə-çəkinə, utana-utana satardı, əlindəki papirosu satmaq üçün divara söykənib yoldan keçənlərə yalnız təklif edərdi. Son zamanlar o qədər sırtıqlaşmışdı ki, başqa satıcı yoldaşlarına da aman vermirdi! Yoldan keçən adamın qarşısına

qaçırdı. Papiros satmaq üstündə yoldaşları ilə boğuşurdu. Alıcı az olduğu zamanlar divar dibində toplanıb yoldan keçən adamların qarşısında hər bir qaba hərəkətlər etmək və tərbiyəsiz sözlər söyləməkdən çəkinməzdi.

Bir gün anasından papirosları alıb satmağa gedirdi. Həyətə çıxınca qonşusu Mürsəl ona yaxınlaşıb gülə-gülə soruşdu:

– Xasay, papirosun biri neçəyədir?

Xasay acıqlı: "İtil get!" – deyə təpiklə onun qarnından elə vurdu ki, Mürsəl sancılanıb yerə yıxıldı: onun bağırtısına anası gəldi. Oğlunu o halda görüncə:

– Bu xuliqanın bir yiyəsi yoxdurmu? Od olub həyətin canına düşübdür. Onu görüm yox olsun! – dedi.

Badam qaşlarını çataraq acıqlı bir səslə Züleyxanın üstə kükrədi:

– Ey, ağzını yığ, xuliqan sənsən. Nə olar? Uşaqdırlar, dalaşıblar...

Züleyxa eyni səslə ona cavab verdi:

– Mən də xuliqan olsaydım, sənin kimi yolkəsənə gedərdim. Sonra üzünü qonşulara tutdu:

– Ay adamlar, belə anaya mən nə deyim? Uşağımı sancılandırıb yerə sərib, yenə heç kefini pozmur. Uşağının əlinə papiros verib küçələrə salan anadan nə gözləmək olar?

– Kasıbçılıqdır, neyləyim!

– Neyləyəsən? İşmi azdır? Sənin iki uşağın var, mənim üç. Mən nə üçün uşaqlarımı papiros satmağa göndərmirəm? ...Çünki mən o küçə xarabanı bilirəm. Səndən pismi yaşayıram? Özün tənbəlsən, zəhmətdən qaçırsan. Uşaqlarının ayağını küçələrdən çək, get sən də mənim kimi işlə.

– Sən mənə yol göstərmə, get öz uşaqlarının dərdini çək.

– Mən özümkülərin dərdini çəkirəm. Çəkməsəm o da quduz it kimi onu, bunu dalardı. Bu həyətdə kim mənim uşaqlarımdan bir gül qədər incimişdir? Dərd sənin dərdindir. Bir də o bizim uşaqlara əl vursa,. sənin başına bir iş açaram ki, bütün həyət tamaşaya durar.

– Arvada bax, dəli olub, mənim başıma neçin?

– Çünki onu vəhşi edib xalqın canına salan sənsən, yoxsa əvvəlləri gül kimi uşaq idi.

Doğrudan da Xasay vəhşi olub çöllərə düşmüş, ipsiz-sapsız bir həyat keçirirdi.

Rəcəb son zamanlar Xasaya çox yaxınlaşmış və onu tamamilə öz təsiri altına almışdı. Çox zaman bağça yanında, küçə qapısında onunla oturub yavaş-yavaş danışırdı. Rəcəb ona deyirdi:

– Məktəbin daşını at, ondan bir şey çıxmaz.

Xasay cavabında deyirdi:

– Anam buraxmaz...

– Mən olan yerdə o kimdir? Sən qorxma, dərsə getmə, şuluqluq elə, qərəz elə bir iş gör ki, səni qovsunlar. Sabahdan oyana məktəbdə qalma.

Küçə həyatı hansı uşağı bir insan kimi yetişdirdi? Hansı insanı bir alim kimi meydana çıxartdı? O azğın həyat kiçik Xasayı öz kəskin və zəhərli dişləri arasında əzir, parçalayır və onu uçuruma doğru sürükləyirdi. Onun başı küçə həyatına o qədər qarışmışdı ki, dərsi, məktəbi büsbütün unutmuşdu. Fikri daima qaranlıq və dumanlı uçurumlarda dolaşırdı. Axşamlar evə yorğun, ağın qayıdıb, anası ilə, bacısı ilə vuruşa-vuruşa, dilləşə-dilləşə yatırdı. Onun əxlaqı və təbiəti dəyişdiyi kimi siması da dəyişmişdi. O, heç əvvəlki Xasaya bənzəmirdi. Üzündən, gözündən xuliqanlıq yağırdı.

VI

Xasay küçə vərdişlərini yavaş-yavaş məktəbə gətirməyə başladı. Hər gün məktəbə əli, üzü, üstü-başı çirkli gəlirdi. Müəllimlər və yoldaşları ilə rəftarı büsbütün dəyişmişdi. Yoldaşlarını təhqir edir, müəllimlərin sözlərinə əhəmiyyət verməyib dərslərinə əsla çalışmırdı. Kamil müəllim bunları gördükcə, eşitdikcə kədərlənir, sinifdə hər xüsusda birincilik qazanmış olan Xasayın birdən-birə bu qədər dəyişməsinin səbəblərini axtarır və ona qarşı çarə və tədbirlər düşünürdü.

Bir gün Xasay öz sinif yoldaşı və qonşusu Mürsəllə vuruşarkən köhnə müəllimlərdən Mirzə Rəhim onun qolundan çəkə-çəkə tutub bir baş müəllimlər otağına gətirdi. İçəri girincə üzünü müdirə çevirib titrək və əsəbi bir səslə bağırdı:

– Yoldaş müdir, belə şey olmaz, sən allah bizi bunun əlindən qurtar.

Bir saniyə gözlərini müdirə dikib durduqdan sonra birdən-birə irəli gəldi. İki əlini Xasaya uzadıb:

– Bilmirəm, bunu məktəbdə nə üçün saxlayırsınız? Bundan nə olacaq? Baxın bir, üz-gözündən quldurluq yağır – dedi.

Mirzə Rəhim Xasayı içəri gətirdiyi zaman Kamil müəllim stol başında oturub qəzet oxuyurdu. Onları görüncə dimdik qalxıb Mirzə Rəhimi dinləyirdi.

Müdir Xasaya yanaşdı:

– Nə üçün dinc oturmursan? – deyə ondan soruşdu.

Xasay gülümsəyib müdirin üzünə dik-dik baxdı, cavab verməyib yenə başını aşağı dikdi. Onun bu hərəkətindən Mirzə Rəhim barıt kimi partladı:

– Uşaqda bir üzə bax, tərbiyəyə bax, bizim vaxtımızda belə şəyirdi bir saat məktəbdə saxlamazdıq, sizin işlərinizə çaşıram – deyə əsəbi halda bir tərəfə çəkildi.

Müdir Xasaya qəti səslə:

– Get, ananı çağır gəlsin – dedi.

Xasay çıxdı. Mirzə Rəhim iki əlini havada oynadaraq acıqlı bir səslə dedi:

– Anası niyə gərək? O gəlib Xasaya buynuz qondarmayacaq ki. Onun bircə çarəsi var.

Kamil müəllim ona yaxınlaşa-yaxınlaşa soruşdu:

– Çarə nədir, Mirzə?

– Qovmaq!

– Yox, mən sizinlə şərik ola bilmərəm.

– Onda məktəbi dağıtmaq, qapısına da böyük bir qıfıl vurmaq lazım gəlir.

– Bu da doğru deyil, bir şəyird nə qədər od olsa, məktəbi dağıtmaz, çünki onu öz gözünün bəbəyi kimi qoruyan polad iradəli müəllimlər kimi qarovulçuları var. Burada yalnız bir şey var: sizin zamananız başqa, bizim zamanamız başqadır. Zaman başqa olduğu kimi, görüş, düşünüş də başqadır. Bizcə hər uşaq bir vətəndaş və sosialist ailəsinin gələcək bir üzvü və işçisidir. Bu gün bir uşaq yaman təsirlərə qapılsa, əxlaq və tərbiyəsi pozulsa, cəmiyyətimiz ondan ziyan çəkməzmi?

– Çəkər.

– O halda bu uşağı islah etmək lazım gəlmirmi?

– Gəlir, fəqət o bizim vəzifəmiz deyil, biz ancaq müəllimik...

– Unutma ki, biz müəllimik. Bizim vəzifəmiz olduqca məsuliyyətli, olduqca mühüm, olduqca pak və müqəddəsdir. Biz uşaq qəlbinin mühəndisi, yeni nəsil tərbiyəçisiyik. Onun hər bir nöqsanını islah etmək bizim vəzifəmizdir; bizdən başqa onu kim islah edə bilər? Xüsusən Xasay kimi istedadlı və gələcəyi parlaq bir şəyirdi islah etmək hər müəllimin vəzifəsidir. Sən onu qovmaq deyil, islah üçün yollar və tədbirlər göstər.

Mirzə Rəhim ona cavab vermədi. Başını tərpədərək etinasız halda bir tərəfə çəkildi.

Kamil üzünü müdirə çevirib dedi:

– Yoldaş müdir, bu uşağa hər tərəfdən təsir etmək üçün bütün qüvvəmizi səfərbərliyə almışıq. Pioner təşkilatı Xasaya təsir etmək üçün işə başlamış, anasına təsir etmək üçün evlərinə təmizlik briqadası göndərmişdir. Biz onu hər halda öz təsirimiz altına ala biləcəyik. Ancaq anasını çağırtdırma, çünki bilirəm gəlməyəcək.

Mirzə Rəhim yerindən qışqırdı:

– Cəhənnəmə gəlməyəcək, gora gəlməyəcək.

Sonra səsinin ahəngini dəyişərək istehza ilə əlavə etdi:

– Nə eləyək, o gəlməz, biz onun qulluğuna gedərik.

– Hər halda getməyiniz lazımdır.

Mirzə Rəhimin gözləri qapaqlarından fırladı, qulaqlarının ucuna qədər qıpqırmızı qızararaq ağzından köpük saça-saça:

– Siz allah, müəllimliyi bu qədər alçaltmayın! – deyə bağırdı.

Bu zaman təmizlik briqadasının üzvləri içəri girdi. Kamil müəllim sorucu gözlərini onlara dikərək nə xəbər verəcəklərini səbirsizliklə gözlədi. Briqada sədri Həsən üzünü Kamil müəllimə çevirib acı-acı gülümsəyərək:

– Kamil müəllim, getdik, fəqət bizi içəri buraxmadılar – dedi. Üzvlərdən birisi:

– Buraxmadılar deyil, bizi qovdular, hətta təhqir etdilər.

Kamil heyrətlə:

– Kim təhqir etdi? – deyə soruşdu.

Həsən əllərini başında oynadaraq:

– Elə bil bunlar heç adam görməmişlər. Artırmanın qapısını vurduq. Yoğun, qısa boylu bir kişi çıxdı, bizi şübhəli baxışlarla süzdükdən sonra qapını açdı, iki əli ilə qapının çərçivələrindən bərk-bərk tutub, boynunu uzadaraq:

– Nə istəyirsiniz? – deyə soruşdu.

– Məktəbdən gəlmişik, təmizlik briqadasıyıq. Otaqlara baxmaq üçün gəlmişik – dedim. O bizi bir də acıqlı baxışlarla süzdükdən sonra:

– Otaqlarımızın nəyinə baxacaqsınız? – dedi. – Bu zaman Xasayın anası Badam gəldi. Bu yoğun kişi gözləri ilə ona nə işarə etdisə, qadın barıt kimi açıldı:

– Mən briqada, mriqada bilmirəm. Gedin, gedin – deyə bizi qovdu.

Kamil düşüncəli gözlərini müdirin üzünə dikdi. Müdir:

– Sizi necə təhqir etdilər? – deyə soruşdu.

Mirzə Rəhim:

– Qəribə adamsan, təhqir daha necə olar? Kişi ağzında deyir ki, bizi qovdular. O meşə ayısı dəyənəklə də briqadanı döyməyəcək idi ki... Belə ata-ananın oğlunu başına vurmaq lazımdır!

Kamilin üzü-gözü dumanlanmış, dərin-dərin düşünürdü. Gənc müəllimlərdən biri:

– Məncə atası ilə görüşmək, onu başa salmaq lazımdır – dedi.

Kamil ona cavab vermədi; çünki dəfələrlə Rəcəbi görüb əhvalatı ona anlatmışdı. Rəcəb isə: "Anasına söylə, mən Xasayın işinə qarışmıram" – deyə işdən boyun qaçırırdı.

Kamil mənalı bir baxışla müdirə baxıb dedi:

– Bacısı Zinyətin anlatdığına görə Xasayı yoldan çıxaran atalığıdır. Deyirlər ki, hər gün onu götürüb gedir. Hara gedir? Nə üçün gedir? Bunu heç kəs bilmir. "Qardaşımı kor qoyan bu kişidir" deyir.

Kamil sözünü bitirməmişdi ki, pioner təşkilatının rəhbəri içəri girdi.

– Müəllim, dediklərimizin hamısını təcrübədən keçirdik. Çox tədbir gördük, heç bir fayda vermədi və verməyəcək. Çünki o artıq papiros satmaqdan əl çəkib pivə budkalarının ağzında dolaşır.

– Necə?.. Yoxsa cibgirlik edir?

– Cibgirlik edir... Qısa, şişman bir kişi ilə əlbirdir.

– Bilirəm, atalığıdır, atalığı...

Mirzə Rəhim gülə-gülə irəli gəldi. Üzünü Kamil müəllimə tutub dedi:

– Buyur, Kamil yoldaş. İndi cibgiri islah et, görüm, necə islah edirsən?

Kamil müəllim düşündükdən sonra:

– Onu Rəcəbdən ayırmaq lazımdır; buna bir yol taparam – dedi. Sonra üzünü müdirə çevirib:

– Bütün bunları anasına anlatmaq lazım deyilmi? – deyə papağını əlinə aldı.

Mirzə Rəhim Kamil müəllimin arxasından gülə-gülə:

– Get, get o arvad səni də təhqir edib qovsun – dedi.

* * *

Kamil müəllim Xasaygilə getdiyi zaman Badam Qızyetərlə qapı ağzında laqqırtı vururdu. Yaxınlaşıb ona salam verdi. Badam salam almağı da unudub onu şaşqın-şaşqın süzdükdən sonra:

– Ha, ha, xeyir olsun, de görək sən nə deyirsən? – deyə onu qaba bir hərəkətlə qarşıladı. Kamil müəllim onun bu hərəkətindən pozuldu. Acıqlı bir səslə:

– Sənin kimi anaların yanına xeyir üçün gəlməzlər – dedi.

Badam qaşlarını çatdı:

– Niyə? Mən necə anayam?

– Sən yaxşı ana olsan, oğlundan xəbərin olar. De görüm, Xasay bu saat haradadır?

– Harda olacaq? Məktəbdə...

– Yox, məktəbdə deyil, sənin sevdiyin kişinlə pivə budkasının yanında cibgirlik eləyir.

Badam donub qaldı.

– Bu nə sözdür? Bunu kim çıxartdı? – deyə acıqlı-acıqlı Kamilin üzünə baxdı. Sonra əlavə etdi:

– Məgər mənim kişim cibgirdi ki, oğlumu da cibgir etsin?

– Onu sən yaxşı bilirsən.

Qızyetər başı ilə təsdiq edərək:

– Doğrudur bala, doğrudur, onda elə şeylər var – dedi.

Badam əli ilə onu itələyərək:

– Yum ağzını, sən bildiyini de, bilmədiyini danışma!

Qızyetər onu acıqlı-acıqlı süzdükdən sonra:

– Qadam ağzına, axmaq qızı, mən də, bu kişi də sənin xeyrin üçün deyirik, yoxsa bizə nə, bir kiçik uşaq indidən o yollara düşsə, axırı nə olar?

Kamil müəllim əlini onun çiyninə qoyub dedi:

– Badam bacı, sən gəl bu uşağın ayağını küçələrdən çək, onu əvvəlki işinə qaytar... Uşağı bədbəxt etmə, hayıfdır.

– Verirdiniz... Görürdük. İndi ayda yüz manatdan artıq qazanır.

– Afərin, yaxşı anasan, bu açdığın uçurumlu yolda öz oğlunu puç edəcəksən. Bu qədər pulu haradan qazanır?

– Paprosdan, alverdən!

– Yox, yalan deyirsən. Papirosdan ayda yüz manat qazana bilməz. Bu pulu cibgirlikdən qazanır.

Badam pul kimi qızardı, gözləri bir-birinə toxunub iki şimşək kimi parladı, boğunuq bir səslə:

– Siz mənim kişimin də, uşağımın da üstünə böhtan atırsınız" Bilmirəm, bizdən nə istəyirsiniz? – deyə yaşarmış gözlərini sildi.

Kamil müəllim Badamın bir az yumşaldığını görüb daha qəti danışmağa başladı:

– Sizdən heç bir şey istəmirik. Yalnız Xasayı bu qorxunc yollardan çəkin. Xalq məhkəməsi Xasay kimi uşaqlara və onların yaramaz ata-anasına ağır cəzalar verir, bunu bilirsinizmi?

– Nə demək istəyirsən?

– Demək istəyirəm ki, Xasayı Rəcəbin qanlı pəncəsindən qurtar, sən bunu edə bilməsən, mən eləməyə məcbur olacağam.

– Sən nə eləyə bilərsən?

– Mən Xasayı da, Zinyəti də sizdən alıb Zəhmət uşaq evinə verə bilərəm.

– Paho... Nə böyük adamsan, nə deyib uşaqlarımı mənim əlimdən alarsan?

– Xalq məhkəməsinin sizin kimi ata və analar haqqında çıxarmış olduğu qanunun gücü ilə. Bu mənim vətəndaşlıq və müəllimlik vəzifəmdir.

Kamil müəllim bu sözləri deyib badamdan ayrıldı. Badam onun arxasınca söylənərək:

– Bunlar kişinin, uşağın başına bir iş açmasalar yaxşıdır – dedi.

VII

Rəcəb Xasaya getdikcə daha çox təsir etməyə çalışırdı. Bir gün Xasay əlində dəyənək bağçanın taxta hasarlığına çırpa-çırpa qaçırdı. Rəcəb bir siçanın quyruğundan tutub gülə-gülə:

– Xasay, bura bax, bura bax, siçan tutmuşam – deyə onu çağırdı.

Xasay qaça-qaça gəldi, sevincək bir halda siçanı atalığından aldı. Onun quyruğuna bir ip bağlayıb oynatmağa başladı. Xasay ipi əlində tutmuş, siçan qaçdıqca o da arxasınca gülə-gülə qaçırdı. Rəcəb birdən-birə Xasayı saxlayıb yavaşca dedi:

– Bura bax Xasay, lap yerinə düşdü, sabah bu siçanı məktəbə aparıb dərs zamanı müəllimin üstünə atarsan. Bu da məktəbdən qovulmağın üçün bir bəhanə olar.

Xasay gülüb dedi:

– Yaxşı fikirdir, sabah apararam.

Həmin gün səhəri Xasay siçanı bir qutuya qoyub məktəbə apardı.

Hələ dərsdən qabaq o, siçanı məktəb həyətində oynadıb uşaqları güldürdü. Zəng vuruldu. Xasay hamıdan əvvəl sinfə girdi. Stolun qutusunu açıb siçanı ora buraxdı, tez ağzını bağlayıb yerinə oturdu. Şagirdlər sinfə girdilər, hər kəs öz yerinə keçdi. Müəllim gəldi. Yoxlama apardıqdan sonra dərsə başladı.

Müəllim təbaşir götürmək üçün masanın qutusunu açmaq istərkən siçan birdən-birə onun üzərinə atıldı. Müəllim diksinib tez geri çəkildi və müvazinətini itirib oturduğu stulla bərabər yerə yıxıldı. Şagirdlər birdən gülüşdülər. Hamısı müəllimə kömək etməyə gəldi. Müəllim tez yerindən qalxdı.

– Siçanı qutuya kim buraxmışdır? – deyə acıqlı soruşdu. Hamı yer-yerdən:

– Xasay! Xasay! – deyə bağırdı.

Müəllim sinifdən çıxdı. Siçan qaçıb gizlənmək üçün ora-bura soxulurdu. Şagirdlər indi onun arxasınca qaçır, ancaq tuta bilmirdilər. Birdən siçan qaçıb skamyaların altında gözdən itdi. Uşaqlar gülüşə-gülüşə onun arxasınca yüyürdülər. Bu vaxt müdirlə Kamil müəllim içəri girdi. Şagirdlər öz yerlərində oturdular. Müdir məsələni aydınlaşdırmaq üçün soruşdu:

– Siçanı sinfə kim gətirmişdir?

Sinif nümayəndəsi yerindən qalxıb cavab verdi:

– Xasay gətirmişdir, həyətdə oynadanda görmüşük.

– Bəs siçanı stolun qutusuna kim qoyub?

Şagirdlər bir ağızdan:

– Biz görmədik – deyə cavab verdilər.

Müdir Xasaydan soruşdu:

– Bu siçanı qutuya sən qoymusanmı?

Xasay cavab vermədi. O, təkrar soruşdu. Xasay yenə başını yerə dikib durdu. Məsələ aydın idi. Odur ki, müdir öz qərarını dərhal bildirdi:

– Get, get bala, bu məktəbdə sənə yer yoxdur!

Xasay sanki bunu istəyirdi. Kitablarını toplayıb tez sinifdən çıxdı.

Kamil müəllimin qəlbindəki iztirab və çırpıntı üz-gözündə oynayırdı. Onun arxasınca baxdı-baxdı, sonra dərindən içini çəkərək:

– Hayıf sənə Xasay. İnsan da bu qədər dəyişərmiş!.. O, məktəbdən qovulur, mənim ürəyim ağrıyır. Get, ancaq sənin axır yerin yenə buradır, – dedi.

VIII

Xasay gecə-gündüz küçələri ölçürdü. O indi Rəcəbin əlaltısı olmuşdu. Qələbəlik yerlərə soxulur, onun-bunun cibinə girirdi. Çox vaxt pivə satılan budkaların qarşısında əlində bir torba bişmiş noxud adamların içinə soxulur və paltarın üstündən cibləri axtarırdı. Birinin cibində pul olduğunu görüncə Rəcəbə göz-qaşla anladır, Rəcəb bir bəhanə ilə ona yanaşır, qolunu yuxarı qaldırıb o adamın şapkasını qolu ilə bərk aşağı basırdı. O adam Rəcəbin qolunun altından çıxmağa və şapkasını düzəltməyə çalışırkən Xasay fürsətdən istifadə edib tez onun cibinə girirdi. Xasay hər zaman müvəffəq ola bilmirdi. Çox vaxt adamlar xəbər tutur, onu döyür, söyürdülər. Bu acıların hamısını duyduğu halda, o yenə də bu çirkin işdən əl çəkmək istəmirdi.

Rəcəbin Xasaydan əvvəl Həsən adlı bir əlaltısı da var idi. Həsən ağır və tənbəl bir uşaq idi. Oxumaq və işləməkdən qaçırdı. Ona görə də Rəcəblə yoldaş olmuşdu. Xasaydan sonra Rəcəbin ona bir o qədər ehtiyacı yox idi. Bununla belə çox vaxt hər ikisini yanına salıb ova çıxırdı.

Bir gün səhər çayını içər-içməz Xasay evdən çıxdı. Yolda Həsənə rast gəldi. Həsən qoz almaq üçün kooperativə girdi. Xasay da cibindən beş şahı çıxarıb ona verdi:

– Varım, yoxum budur, al bərabər yeyək – dedi.

Həsən qozu alıb kooperativdən çıxdı. Yemək üçün "Azadlıq bağçası"nın yanına gəldilər. Qapı ağzında üç-dörd patsan durmuşdu. Həsənin əlində qozu görüb onu araya aldılar: "– Bizə də ver, bizə də ver" – deyə qozu pay-puş etmək istədilər. Həsən onları itələyib:

– Yavaş-yavaş, sizə də verəcəyəm – dedi.

Xasay da bir tərəfdən soxulub: "Əvvəlcə mənim payımı ver" – deyirdi. Aralarında söz böyüyüb söyüşdülər. Yoldan keçən bir gənc onlara acıqlanıb:

– Ayıb deyilmi? Nə üçün belə boğuşursunuz. Verin mən paylayım – dedi.

Hamı razı oldu. Gənc gülə-gülə soruşdu:

– Allah bölgüsü istəyirsiniz, yoxsa bəndə bölgüsü?

Patsanlardan birisi bağırdı:

– Allah bölgüsü, allah bölgüsü.

Gənc iki dolu ovuc birisinə, bir ovuc da birisinə verdi. Yerdə qalan üç qozu da dörd uşaqdan birinə bir qoz, o birinə iki qoz verdi. İki uşağa qoz çatmadı. Uşaqlar acıqlandılar.

– Yox, bu düz bölgü deyil – dedilər.

Gənc cavab verdi:

– Allah bölgüsü belədir. Birinə o qədər verir ki, aşıb-daşır, birinə az verir, o birinə heç vermir.

Xasay bağırdı:

– Bəndə bölgüsü yaxşıdır, bəndə bölgüsü.

Gənc qozları yenə bir yerə topladı və onların arasında bərabər böldü. Hər uşağa beş qoz düşdü.

Xasayla Həsən onlardan ayrıldı. Qozları qırıb yeyə-yeyə bağçanın içi ilə gəlirdilər. Ağac başında bala sığırçın gördülər. Hər ikisi dayandı; Xasay sıx kirpikli kiçik qara gözlərini ona dikib qaldı. Sonra quşu tutmaq üçün tez ağaca dırmaşdı. Həsən də ayağından qaldırıb:

– Tut, ikimiz də oynadarıq, – dedi.

Xasay bu sözə əhəmiyyət verməyib çıxdı. Sığırçını min bir fəndlə tutub ağacdan endi. Sevinə-sevinə:

– Bunu özüm saxlayacağam – dedi.

Quşa Həsən də yiyələnmək istədi. Onu hər biri bir tərəfə çəkməyə başladı. Deyişmələri uzandı. Döyüşməyə başladılar. Yoldan keçən bir müəllim bunları görüb yaxınlaşdı:

– Yol ortasında iki məktəbli döyüşməz. Ayıbdır, bir də bu yazıq quşu nə üçün çəkişdirirsiniz?

Həsən dedi:

– Əmi, bu sığırçını ağacda ikimiz də gördük, mən ona nərdivanlıq etdim, ayaqlarını əllərimə, çiynimə qoyub ağaca qalxdı. İndi isə: "quş mənimdir" – deyir.

– Yalan demə – deyə Xasay etiraz etdi. – sən məni yaxşı tanıyırsan, mən kərtənkələ kimi dimdik divara dırmaşaram. Hay-hay, mənə nərdivanlıq edənə bax, ağac başında qanadlı bir quşu tutmaq, qoz qırıb yemək deyil; əlini uzadınca quş "pır...r" uçub gedər. Mən sığırçını gördüm, öz hünərimə güvəndim. İlan kimi budaqlara sarıldım, əlimi yarpaqların arasından uzadıb quşu elə tutdum ki, heç özünün də xəbəri olmadı. sən yerdən qurbağanı da götürə bilməzsən.

Xasayın qoçaqlığı və danışığı müəllimin çox xoşuna gəldi:

– Oğlum, sən hansı məktəbdə oxuyursan? – deyə soruşdu. Xasay dinmədi, başını aşağı dikib durdu. Müəllim bir də sual verdi. Həsən gülə-gülə:

– Patsanlar məktəbində oxuyur – dedi.

Müəllim heyrətlə ona baxıb:

– Sənin kimi ağıllı və qoçaq uşağa patsan məktəbi yaraşmaz, gedək bizim məktəbdə oxu, məktəbimiz sənə hər cür kömək edər – deyə Xasaya təsir etməyə çalışdı.

Xasay müəllimin sözlərini dinləmədən uzaqlaşıb getdi. Müəllim onun arxasınca çox səsləndi, Xasay cavab vermədi.

Sonu olmayan bu azğın yolun acılığını Xasay hər gün dadırdı. Yediyi yumruqlar, təpiklər, qabırğa deşən dümsüklər. acı-acı gülüşlər ona təsirsiz qalmırdı. Müəllimin sözləri də ona az təsir etməmişdi. Yolda gedərkən öz-özünə düşünürdü: "Mənim axırım nə olacaq, hər kəs mənə patsan deyir, xuliqan deyir, cibgir deyir, ölüncəyə qədər mən belə qalacağammı?"

O hər gün xuliqanların, cibgirlərin yaxalandığını görür, sürgün edildiyini eşidirdi. Onu hər şeydən çox kiçik xuliqanlar haqqında çıxarılan 103-cü maddə qorxudurdu. O bilirdi ki, bir gün yaxalanıb sürgün ediləcək...

IX

Rəcəb ov tulası kimi Xasayı yanına salıb ova çıxmışdı. O bu gün olduqca şıq geyinmişdi. Başında qiymətli şlyapa, boynunda qalstuk, əlində kitab və dəftərlə dolu bir portfel var idi. Zahirdən heç kəs onun əsil peşəsini təyin edə bilməzdi. Xasay onun arxasınca gedir, heyrətlə Rəcəbə baxıb gülürdü. Stansiyaya çatınca hər ikisi atılıb içi adamla dolu

bir tramvaya mindi və dərhal adamların içinə soxuldu. Tramvayın ortasında üstü-başı təmiz iki nəfər danışırdı. Xasay onların o yan bu yanına keçib yoxlamağa başladı. birinin cibində pul olduğunu Xasay gözqaşla Rəcəbə bildirdi. Rəcəb o adama yanaşdı. Görməsin deyə iri portfelini onun köksünə sıxaraq əlini cibinə soxdu. Pulu iki barmağı arasında yavaşca çıxarmaq istərkən kişi anladı, tez əlini cibinə uzatdı, Rəcəb əlini onun cibindən çıxarınca kişinin əlinə toxundu. Kişi çəkilərək:

– Ay, nə edirsən – deyə heyrətlə Rəcəbə baxdı.

Rəcəb də:

– Nə deyirsən? – deyə acıqlı gözlərini ona dikdi.

– Cibimə nə üçün girirsən?

– Kim? Mən?

– Sən!.. Sən!..

Rəcəb gözlərini heyrətlə açaraq:

– Ey, ağzının sözünü bil, yoxsa ki çənəni sındıraram – deyə onu hədələdi.

O adam istehzalı baxışla Rəcəbi gözucu süzdükdən sonra acı-acı gülümsəyərək:

– Portfelli xuliqan, – deyə ətrafa baxdı.

Tramvaydakılar gülüşdü. Tramvay duracağa yaxınlaşmaqda idi. Adamlar enmək üçün baş tərəfə keçirdi. Rəcəbin ovu tutmamışdı, enməkdən başqa çarəsi yoxdu. İrəliləyən adamların arxasınca gedə-gedə üzünü o adama tutaraq:

– Xuliqan olduğumu sənə göstərərəm – dedi. O adam tövrünü pozmayaraq:

– Get, get, ovun tutmadı, hələ başında şlyapasına, qoltuğunda portfelinə, yanında tulasına bax – dedi.

Xasay da tramvaydan enib bir-birindən aralı olaraq adamlara qarışdılar.

X

Axşamüstü idi. Adamlar sirkin kassası qarşısında toplanıb bilet alırdılar. O gecə yeni və gözəl nömrələr göstəriləcək idi. Xasay bilet almaq bəhanəsi ilə adamların içərisinə soxulmuşdu. Ancaq çox çalışdı, bir şey bacarmadı, axırda onu "xuliqan" deyə dümsükləyib qovdu-

lar. Xasayın bazarı tutmamışdı. Bir tərəfdə durub qəmli-qəmli düşünürdü. Bu zaman yaşlı bir qadın əlində sirk bileti onun yanından keçərkən Xasay bileti onun əlindən alıb qaçdı. Qadın arxasınca bağıra-bağıra qaldı... İçəridə oyun başlanmış, qadın getmişdi... Xasay biletini göstərib içəri girdi.

Gecikmiş tamaşaçılar qapı ağzında toplanıb tamaşa edirdi, Xasay onların arasına soxuldu. Bu zaman təlim verənlərin birisi eşşəyin qulağından tutub səhnəyə gətirdi. Kiçik bir stol qarşısında durdular. Təlim verən üzünü tamaşaçılara tutub dedi:

– Tanış olan, bu mənim çalışqan şagirdlərimdən birisidir, özü də ağıllı və oxumuş eşşəkdir.

Bunu deyib səhifələri qalın kartondan düzəlmiş iri cildli bir kitabı stolun üstünə qoydu. Sonra üzünü eşşəyə tutub dedi:

– Çalışqan şagirdim, aç, dərsini oxu.

Eşşək burnu ilə kitabın vərəqlərini açdı. Sonuncu səhifəni açdıqdan sonra burnu ilə kitabı örtüb ucadan anqırdı. Eşşək o qədər ucadan və qəribə bir səslə anqırdı ki, adamlar gülməkdən axıb getdi.

Hər kəsin başı gülməli və təəccüblü tamaşaya qarışdığı zaman Xasay yanındakı kişinin cibinə girdi. Kişi onun əlini tutub "xuliqan" deyə üzünə bir sillə vurdu. Sonra səhnəni ona göstərib:

– Bax, eşşək də tərbiyə alır. Amma sən cibə girirsən – dedi.

Bu sözləri o elə ucadan söylədi ki, hamı ona baxdı. Tamaşaçılardan birisi:

– Buraxma bu dələduzu, ona tənbeh lazımdır! – deyə bağırdı. Bu zaman qapı ağzında duran milis nəfəri Xasaya yaxınlaşdı. Xasay əlini kişinin cibindən çıxarmaq üçün nə qədər dartındısa. kişi onun əlini bərk-bərk tutub buraxmadı. Milis nəfəri yaxınlaşınca:

– Al, bunu lazım olan yerə tapşır, – dedi.

XI

Kamil müəllim hər axşam zəhmət kommunasında həbsə məhkum edilmiş gənclərə dərs verirdi. Bir axşam da sinfə girəndə Xasayı burada gördü. Kamil müəllim təəccüb etmədi. Çünki o, hər şeydən xəbərdar idi. Odur ki:

– Oha... Köhnə dostum, bizim zəhmət kommunamıza xoş gəlmisən, səni çoxdan gözləyirdim – deyə Xasaya yanaşdı.

Xasay utandığından başını yerə dikib durdu. Kamil müəllim onun başını oxşayaraq soruşdu:

– Hansı sənəti öyrənirsən?

Dülgərlik şöbəsindəyəm – deyə Xasay cavab verdi.

– Çox gözəl... Bura sənin üçün çox faydalıdır. O səfil həyat bax, səni nə qədər dəyişdirmiş, əxlaq və təbiətin qədər siman da dəyişmiş, əvvəlki Xasaya heç oxşamırsan. Lakin bura səni çox dəyişdirəcək; çünki sənət, insanı zəhmətə alışdırır. Zəhmət isə əxlaq və sağlamlığın açarıdır.

Xasay üç ay zəhmət kommunasında qaldı. Kamil müəllimin təşəbbüsü ilə görülən işlər oradakı gəncləri, eləcə də Xasayın islahı üçün çox gözəl şərait hazırlamışdı. Çox keçmədi ki, Xasay təmizlik briqadası rəhbərliyinə seçildi. Vaxtaşırı gördüyü işlər haqqında müdirə raport verirdi.

Müdir Xasayı çox bəyənmişdi.

Xasay emalatxanada işləyirdi, sinifdə çalışırdı, həyətdə və bağçada yoldaşları ilə oynadığı zaman olduqca şən və bəxtiyar görünür, başqa bir şey düşünmürdü. Yalnız tək və işsiz qaldığı zaman yenə də başında qara dumanlar uçur, keçmiş səfil həyatını düşünməyə başlayırdı. Fəqət Kamil müəllim ona elə şərait yaratmışdı ki, Xasay nə işsiz, nə də yalqız qala bilirdi.

O gün zəhmət evində hamı bir-birinə dəymiş, qəzeti bir-birinin əlindən qapırdı. Qəzetdə Azərbaycanın sovetləşməsinin 15 illiyi münasibəti ilə hökumət əfvi-ümumi elan etmişdi. Bunu eşitmiş olan zəhmət kommunasının uşaqları gözlərini qərardan ayırmayıb çaşqın bir sevinc içində əfvi-ümumi maddələrini oxuyurdu. Hamı sevincindən sıçrayır, oynayır, oxuyur,. min-bir hərəkət edirdi. Bu qərar əvvəlcə Xasayı da çox sevindirdi. Lakin bir saat sonra anası Badamın dilənçi qutusunu, atalığı Rəcəbin işlərini xatırlayınca üz-gözündən sevinc parıltıları bir anda söndü, onun yerinə düşüncə, kədər kölgələri qonmağa başladı. O qol-qanadı yanına düşmüş yaralı bir quş kimi artırmada dolaşırdı. Onu müəllimi Kamil uzaqdan görüncə yaxınlaşdı. Dumanlı gözlərindən, kölgəli üzündən qəlbindəki çırpıntı və kədəri oxudu. Əlini onun çiyninə qoyaraq:

– Hamı həyətdə sevinc dalğaları içində coşub-daşdığı halda, sən nə üçün sönmüş körük kimi durmusan? – deyə ondan soruşdu.

Xasay süni gülümsəyərək:

– Mən onlar kimi coşa bilmərəm – deyə cavab verdi.

Kamil əlini onun çiyninə qoyaraq dedi:

– Bilirəm, səni düşündürən nə şeydir. Qorxma,. buradan çıxdığın gün artıq Rəcəbin üzünü görməyəcəksən. Onun haqqında cinayət axtaran idarəyə məlumat verilmişdir. Badam bacı üçün də fikrim başqadır. Bunları sən düşünmə, məni qorxudan bilirsənmi nə idi? Xuliqanlıqla ləkələndiyin üçün heç bir məktəb səni qəbul etməyəcəkdi. Lakin əfvi-ümumi məktəbə girmək haqqını sənə qaytardı. Bax, buna sevinməlisən. Azad olduğun gün səni məktəbdə gözləyirəm.

İki gün sonra Xasay azad edildi. O indi azadlığa çıxdığı üçün sevinirdi. Oradan bir başa evə getmək istədi. Fəqət evdə onun qəlbinə sevinc və şəfəq saçan bir şey görmədi, düşünə-düşünə ağzı gəldiyi tərəfə getməyə başladı. Şəhər həyatından çoxdan ayrıldığına görə küçələr, adamlar ona bambaşqa görünürdü. Küçələri, mağaza sərgilərini seyr edə-edə yavaş-yavaş dolaşırdı. Üç-dörd saat küçələri dolaşdı. Oradan kolxoz bazarına getdi. Böyük darvazanın yanında dolaşdı. Həsəni gördü. Görüşdülər. Keçmiş həyatı öyrənmək nədənsə Xasayı yenə maraqlandırırdı. Həsəndən bildiyi, tanıdığı "dostları" soruşdu. Həsən çoxunun sürgün edildiyini xəbər verdi.

Həsənin bütün fikri təqib etdiyi qadında idi. Xasaya ala-yarımçıq cavablar verirdi. Birdən o, ov görmüş ovçu kimi sürətlə irəli sıçradı. Xasay dönüb heyrətlə ona baxdı. Həsən üst-başı təmiz bir qadına yanaşdı, onun əlindəki çantasını elə ustalıqla qapıb qaçdı ki, Xasay bir də qadının bağıra-bağıra onun arxasınca qaçdığını gördü. Həsən küçənin bu başından o biri başına keçməli oldu. Yanğınsöndürən maşın küçədən sürətlə keçərkən Həsən özünü saxlaya bilmədi, maşının altına düşdü. Xasay gözlərini yumdu.

Adamlar yığışdı, biri ona acıyır, başqası isə: "Yaxşı oldu, xuliqanlıq etməsin" – deyirdi.

Xasay gördüyü bu acı vaqiədən donub qalmışdı. O, həm Həsənə acıyır, həm də özünü düşünürdü. O, bilirdi ki, xuliqanlığın axırı yoxdur. Bu zaman milis nəfəri yoldan keçən bir arabanı çağırdı. Həsənin meyitini arabaya qoyub apardı. Araba klinikanın darvazasından içəri girdi. Xasay sonuncu dəfə olaraq Həsənin meyitinə baxdıqdan sonra

klinikanın divarına söykənib, qəmli-qəmli durdu. Yaxındakı məktəbin şagirdləri, danışa-danışa, gülüşə-gülüşə qoltuqlarında kitab çantası küçədən keçirdilər. Onlar elə səmimi və dadlı danışırdılar ki, Xasayın ürəyi yerindən oynadı, keçmiş günləri yadına düşdü. Gözləri önündən bir çox dadlı xatirələr keçdi. Sonra onun yolunda bu qədər əmək sərf edən, həqiqi bir ata kimi çalışaraq onu uçurumlu yollardan uzaqlaşdıran müəllimi Kamili xatırladı. Kamil onun xəyalında bu gün olduqca böyümüş, qəlbinə, dimağına hakim olmuşdu. Xasay Kamili heç bir zaman bu qədər təqdir etməmişdi. Oradan birbaş evə qayıtdı. Həyətə girincə ilk əvvəl onu Zinyət gördü. "Xasay gəldi, Xasay gəldi", – deyə sevinə-sevinə ona tərəf qaçdı. Xasay bacısı ilə məhəbbətlə görüşdü. Anası Badam da qaçaraq onun boynuna sarıldı. Badam ondan "Zəhmət kommunasına" dair bir çox şey soruşdu. Xasay gördüklərini qısaca anlatdı.

Xasay o gün çox kədərli və düşüncəli görünürdü.

Ertəsi günü Xasay səhər erkən evdən çıxdı. Küçəni dönərkən yolun ayrıcında durub düşündü. Yolun biri məktəbə, o birisi bazara gedirdi. "Zəhmət kommunası"ndan çıxarkən Kamil müəllim ona: "Sabahdan məktəbə gələrsən" demişdi. Onun qəlbində bir-birinə zidd olan iki qüvvə çarpışırdı. Çox düşündü. Nədənsə bazara gedən yolla getdi. Bir-iki saat bazarı dolaşdı. O, bu gün öz köhnə sənətindən yadırğamış kimi idi. Adamlara necə yanaşsın, əlini başqalarının cibinə necə soxsun? Bunlar ona çətin və ağır görünürdü. Bir də ki, başqa xuliqanların sürgün edilməsi, gözləri önündə yoldaşı Həsənin fəlakətli ölümü onu büsbütün sarsıtmışdı. O indi əllərini bir tərəfə uzadıb "qurtarın məni" deyirdi. Lakin səsi çıxmırdı. Küçə, bazar və adamlar bu gün ona bambaşqa görünürdü. Oradan birbaş evə döndü, ancaq ev də onu sıxırdı, çünki onun yeni istək və tələblərini təmin edə bilmirdi. Xasayı ən çox qorxudan bu məsələ idi. Anasının yanında tum, konfet və papiros qutusunu gördükcə başı dumanlanırdı. Xasay pəncərəyə dirsəklənib bunları düşünürdü. Anası Badam ona yanaşdı:

– Oğlum, bu gün on gündür ki, Rəcəb evə üz çevirmir, onun dalınca gəzirlər, bunu bilib evdən qaçaq düşübdür. İşimiz heç yaxşı deyil. De görüm, oğlum, sən indi nə iş görəcəksən?

Xasay cavab vermədi. Badam ona beş qutu papiros uzadıb:

– Heç olmasa bunları götür sat – dedi.

Xasay papirosları əli ilə itələyib:

– Mən meymun deyiləm – dedi.

– Kül başına, papiros satanlar meymundurmu? – deyə anası heyrətdən böyüyən gözlərini ona dikdi.

– Meymun olmasa adamların qabağında atılıb-düşməzlər.

Anası cavab vermədi. Xasay oradan həyətə çıxdı. Beş dəqiqə sonra evə döndü. O get-gedə əsəbiləşir, qiymətli bir şey itirmiş adamlar kimi zehni, gözü, xəyalı daima bir şey axtarır, düşünür, düşünürdü. Pəncərəyə yaxınlaşaraq kitablarını açdı, səhifələrini bir-bir, yavaş-yavaş çevirdi, oxumağa həvəsi gəlmədi, kitabı yenə büküb:

– Bir zaman mənim ən yaxın dostum siz idiniz, sabahdan yenə siz olacaqsınız! – dedi.

Zinyət gülümsəyərək:

– Sağ ol, qardaşım – deyə sevinclə parıldayan gözləri ilə ona baxdı.

XII

Xasay yenidən məktəbə qəbul edilmişdi. Kamil isə onu bir an gözdən qoymur, onu dərsə, məktəbə maraqlandırmaq üçün hər şərait hazırlamışdı. Kamil müəllimi ancaq Xasayın ailə həyatı düşündürürdü. O, bilirdi ki, Xasayın ailə həyatında yeniliyə və yaxşılığa doğru bir dəyişiklik olmasa, istedadına güvəndiyi Xasayı istədiyi kimi bir vətəndaş yetişdirə bilməyəcək. Halbuki Xasaydan gələcəkdə çox şeylər gözləyirdi. Bu arzusuna qovuşmaq üçün hər şeydən əvvəl Xasayın anası Badamı tərbiyələndirmək, yeni həyatın bütün şəraiti ilə onu aşna etmək istəyirdi. O indi yalnız bunu düşünür, bunun üçün çarələr axtarırdı.

Xasayın pozulmuş əxlaqı hələ tamamilə əvvəlki halına gəlməmişdi. O, yenə sinifdə arabir bəzi qaba hərəkətləri ilə dərsə mane olub müəllimləri və yoldaşlarını incidir, intizamı pozurdu. Qoca müəllim Mirzə Rəhimin şikayətləri yenə başlamışdı. Kamilə arabir şikayətlənib: "Bu nədir, bu xuliqanı yenə nə üçün məktəbə gətirdiniz? Bilmirəm nə üçün bu qədər ona yapışmısınız? Ondan adam olsa mən bu bığlarımı kəsdirərəm" – deyirdi.

Kamil gülə-gülə:

– Səbir et, Mirzə, Xasay əvvəlkindən artıq olmasa, mən də adımı müəllimlikdən sildirərəm – deyə cavab verdi.

Böyük tənəffüsdə bir gün Xasay həyətdə oynarkən sinif yoldaşı Rəşid bilmədən ona şiddətlə toxundu. Xasay hirslə geri döndü, üz-gözünü turşudub Rəşidə bir sillə ilişdirdi. Rəşid bir an dinmədi, əli ilə qızarmış üzünü tutub ona baxdı. Sonra mülayim bir səslə dedi:

– Heç utanmırsan, Xasay, adam da öz yoldaşını vurarmı? Mən sənə nə yamanlıq eləmişəm?

Doğrusu Xasay belə cavab gözləmirdi. Bir də bu sözləri Rəşid o qədər təsirli ifadə ilə söylədi ki, Xasay donub qaldı. Rəşidin üzünə heyrətlə baxdıqdan sonra birdən-birə hıçqıra-hıçqıra ağlamağa başladı. Yoldaşları nə qədər çalışdı. onu sakit edə bilmədi. Səsə növbətçi müəllim Mirzə Rəhim gəldi. Kamil də dərhal hazır oldu, məsələni aydınlaşdırmaq istədi:

– Kim vurdu? Nə üçün ağlayırsan? – deyə ondan soruşdu. Xasay ağlaya-ağlaya cavab verdi:

– Müəllim, Rəşid bıçaq ilə ürəyimin başından elə vurdu ki...

Heyrətindən özünü itirmiş Mirzə Rəhim Rəşidin üstünə yüyürüb əli ilə ondan yapışdı:

– Ver bura bıçağı. Bıçaq hanı?

Rəşid gülə-gülə:

– Müəllim, məndə bıçaq nə gəzir – deyə ciblərini ona göstərdi.

Kamil Xasayın yaxasını açа-açа:

– Hardan vurdu? – deyə soruşdu.

Xasay ağlaya-ağlaya sözündə israr etdi:

– Müəllim, bıçağı ürəyimə elə sancıb ki, nə izi görünür, nə də qanı.

Şagirdlər gülüşdülər. Müəllimlər çaşıb qalmışdı. Elə bu vaxt şagirdlərdən birisi irəli gəlib əhvalatı olduğu kimi müəllimlərə söylədi. Kamilin üz-gözündən dumanlar dərhal uçdu. Gülə-gülə Rəşidə baxdı, onun söylədiyi sözləri bir də təkrar etdi: – "Heç utanmırsan? Xasay, adam da öz yoldaşını vurarmı? Mən sənə nə yamanlıq eləmişəm?". Sözə bax, sözə! Bu cani bıçağı deyil, həqiqi məktəbli bıçağıdır, özü də elə kəsir ki, nə izi olur, nə qanı. Kəsərli söz qılıncdan da itidir.

Mirzə Rəhim acıqlı durub başını tərpədirdi. Kamil gülə-gülə ona yanaşdı, qolundan tutub danışa-danışa getdilər. Kamil deyirdi:

– Siz deyirsiniz, bu uşaq islah olmaz, halbuki, onun bu halı islah olunacağına böyük ümid verir.

Mirzə Rəhim acı-acı gülərək:

– Nə ümid verir, dəlidir, dəli, özü vurub, özü də ağlayır – dedi.

– Yox, belə deyil, vurmağa, söyməyə Xasay vərdiş etmişdir. Ancaq o çirkin həyat onun qəlbinə həmişəlik hakim olmamışdır. O, əvvəlki təmizliyini mühafizə edə bilmişdir. Baxsana, Rəşidin ipək kimi yumşaq sözü onu qılınc kimi kəsir, o öz işindən peşman olub ağlayır.

Onlar danışa-danışa dəhlizə girərkən müdirlə bir neçə müəllim onları qarşıladı. Müdir Mirzə Rəhimdən soruşdu:

– Yenə nə var, Mirzə? Həyətdə nə səs-küy idi?

Mirzə Rəhim əhvalatı olduğu kimi anlatdı. Müdir başını tərpədə-tərpədə:

– Ondan adam olmayacaq, qovmaq lazımdır – deyə müəllimlərin üzünə baxdı. Mirzə Rəhim:

– Mən bunu çoxdan deyirəm, siz indi anlayırsınız; ona çəkilən bu zəhmətlər nahaqdır. Kamil müəllim onları diqqətlə dinlədikdən sonra soruşdu:

– Zəhmət kommunası evindən gələni Xasay xeyli dəyişməmişdi? O get-gedə dəyişmirmi?

Müdir əlini havada oynadaraq ciddi bir tövrlə dedi:

– Biz bütün pioner təşkilatını, sinif müəllimlərini səfərbərliyə aldıq, bütün qüvvəmizi, energiyamızı ona sərf edirik, bu dəyişmək dəyişməməkdir. Bu gün bir şagirdi, sabah da bir müəllimi vurar... Onu qovmaq lazımdır!

Mirzə Rəhim müdirə tərəfdar çıxdı:

– Stolun qutusuna siçan buraxdığını unutdunuzmu? Onu edən bir şagird hər şey edə bilər. Mən bilmirəm təzədən bunu nə üçün qəbul etdiniz; nə böyük bir mətahmış. O, bizdən əl çəkir, biz ondan əl çəkmək istəmirik. Kamilin işlərinə mən çaşıram.

Kamil müəllim qızardı, bozardı, özünü toplayıb bundan artıq cavab verə bilmədi:

– Onun zəhməti hər kəsdən çox mənim üzərimdədir. Siz nə üçün bu qədər şikayət edirsiniz?

Mirzə Rəhim yenə Kamil müəllimi fikrindən daşındırmaq istədi:

– Bir bilsəydim, bu yaramazı sən nə üçün bu qədər müdafiə edirsən; onun yeri küçədir, küçə!

– Onun həm böyük istedad olduğunu bildiyim, həm də cəmiyyətimizə dəyərli bir vətəndaş bağışlamaq istədiyim üçün müdafiə edirəm. Yanılırsan, Mirzə, onun yeri küçə deyil, məktəbdir. Mən ürəyimin qanı ilə becərdiyim bağçamın ən gözəl, ən parlaq çiçəyini qoparıb atmağa razı olmayacağam.

Bu sözə müdir və müəllimlər güldü. Mirzə Rəhim də onların içində idi.

– Ən gözəl, ən parlaq çiçəyə bax! Görmürsünüzmü, ətri bütün məktəbi basıbdır?!

Kamil üzünü Mirzə Rəhimə tutub ciddi bir səslə:

– Mirzə, sonuncu gülən qazanır, – dedi, – sözümü isbat üçün sizdən yalnız bir ay vaxt istəyirəm. İslah olmasa, Xasayın qovulmasına birinci mən özüm səs verəcəyəm.

Kamilin bu sözündən sonra hamı susdu. Ayaqüstü iclas qurtardı; yalnız Mirzə Rəhim qaşlarını çataraq:

– Kişidə səbrə bax, inada bax – deyə heyrətlə açılan gözlərini Kamilin üzünə dikib qaldı.

XIII

Xasay hər gün məktəbdən evə döndüyü zaman halı dəyişirdi. Bir gün evdə yalqız olduğundan artırmada durmuş, gözlərini pəncərədən bağçaya dikib düşünürdü. Atası sağ olduğu zaman bağçada bərabər çalışdıqları xoşbəxt günlər, sinifdə birinci əlaçı olduğu, atasının ölümü, anasının Rəcəbə ərə getməsi, bu quldurun təsiri ilə azğın yollara sapıb işıqlı, uca göylərdən bataqlığa düşməsi – bütün bunlar kino lenti kimi bir-bir onun gözləri önündən keçirdi. Bu acı xatirələr içində onun ruhuna işıq, qəlbinə sevinc verən heç bir şey yox idi. Yalnız ruhunu oxşayan, səmimi məhəbbət bəsləməyə başladığı sevimli müəllimi Kamil idi. Düşündükcə, Kamil müəllim onun gözləri önündə böyüdükcə-böyüyür, canlı bir heykəl kimi qarşısına dikilib ona: "Qorxma, sənin fitri istedadını inkişaf etdirmək üçün bütün qüvvə və iradəmi sərf edəcəyəm" – deyirdi.

Xasay düşüncələrlə bağçaya çıxdı. Bağça əvvəlki bağça deyildi, alaq basmış, su verilməmiş olduğundan çiçəklər solmağa başlamışdı. Xasay o solğun çiçəklərə baxıb acı-acı gülümsədikdən sonra: "Atam sizi beləmi becərirdi?" – dedi. Sonra qollarını çirmələyib bağçanın alağını etdi, təmizlədi, süpürdü, tam iki saat çalışdı. Vəzifəsini bitirmiş olan adamlara məxsus bir tövrlə bağçaya bir də baxdı. Bu dəfə bağça ona bambaşqa göründü.

Qəlbi sevinclə dolu olaraq evə döndü. Evdə kimsə yox idi. Yastığı götürüb xalça üzərində uzandı. Onun başına yenə qara fikirlər dol-

mağa başladı. Əsəbi bir halda yerindən fırlayıb artırmaya çıxdı. Taxtalığın arxasında qonşu Qızyetər qızı Züleyxa ilə danışırdı.

Qızyetər deyirdi:

– Ay qız Züleyxa, hamıdan artıq mənim Xasaya yazığım gəlir, görürsənmi nə qədər dəyişib, görəndə ürəyimin başı göynəyir. Bu Rəcəb yazıqların komasını dağıtdı. Onu görüm, koması dağılsın. Əvvəldən bilsəydim, bu işə səbəb olmazdım.

– Sən bilmirdinmi o, köhnə qolçomaqdır. hökumət tərəfindən sürgün edilib? Bizim kənddə ki onu tanımayan yoxdur. Əsil adı Mahmuddur. Rəcəb adına saxta bir pasport ələ keçirib, bu pasportla da yaşayır. Sürgündən qaçmış bu canavarın siyasi müqəssir olduğunu heç kim bilmir.

– Ay qız, mən bunları heç bilmirdim. Bəs bunları nə üçün mənə deməmisən?

– Qorxumdan deyə bilərdimmi? Onun fikri məni almaq idi. Onun kim olduğunu bir-bir üzünə oxudum, "Qalx buradan get, öz tayını tap!" – dedim. Kişi bir an donub qaldı, sonra acıqlı-acıqlı üzümə baxıb dedi:

– Züleyxa, bu sözü bir dedin, bir də sənin ağzından eşitməyim. Eşitsəm, inan ki, nə sən sağ qalarsan, nə də uşaqların.

– Vay, ağzın qurusun. Mən bunu belə tanımamışdım. Bu canavar oğlu canavar məni də qorxudurdu.

– Səni nə üçün?

– Ay qız, bu hansı kitabda görünüb, kişini tramvaydan itələyib öldür, arvadını al, uşaqlarını əsir-yesir elə.

– Nə deyirsən, ay arvad, yoxsa Balakişini bu namərd öldürmüşdür?

Onu görüm kor olsun, daha kim öldürəcək? Hayıf ki, bunu Badamı alandan sonra mənə söylədi. Mən ona bir neçə ağız söz dedim; gözlərini ağardıb dedi ki: "Ağzından çıxsa, özün bil ha, mənə Rəcəb deyərlər..."

Xasay bu sözlərin hamısını eşidirdi. Atasının Rəcəb tərəfindən öldürüldüyünü eşidincə qəlbi döyündü, gözləri dumanlandı. Özünü saxlaya bilməyib ağlaya-ağlaya otağa qaçdı, yastığı qucaqlayıb hıçqıra-hıçqıra ağladı. Bu zaman Zinyət içəri girdi. Xasayı elə görüb:

– Xasay, nə üçün ağlayırsan? – deyə soruşdu.

Xasay cavab vermədi. Zinyət çox çalışdı, Xasaydan cavab ala bilmədi. O, ağlamaqda davam edirdi. Zinyət qaçıb anasını çağırdı. Badam qoltuğundakı qutusu ilə ona yanaşıb:

– Xasay, oğlum, niyə ağlayırsan? – deyə soruşdu.

Xasay əli ilə onun qutusunu itələdi. Badam heyrətlə Xasaya baxdı.

– Bu dəli olub nədir? Allah o müəllimin evini yıxsın, mənim evimi o kafir oğlu yıxdı.

Xasay çox ağladı, onu sakit edə bilmədilər. Bir az sonra yerində fırlandı. Kimsəyə açmadığı bu sözü müəllimi Kamilə söyləmək istəyirdi. Paltarını, ayaqqabısını geyinib hazırlanırkən Rəcəb qiyafəsini dəyişmiş halda içəri girdi, Xasayı görüncə:

– Oho... Xasay, xoş gördük... Çıxdığını eşidib gəlmişəm, necəsən, oğlum? – dedi.

Xasay ona cavab vermədi.

– A gədə, atan sənlə deyilmi, niyə cavab vermirsən? – deyə Badam oğlunu danladı.

Xasay üzünü divara tutub durdu. Onun gözləri dolmuş, ağlamaq və bağırmaq istəyirdi. Əsəbi bir tövrlə qapıdan çıxmaq istərkən Rəcəb onun qolundan hiddətlə çəkərək:

– Ey, hara gedirsən? – dedi.

Xasay əlini şiddətlə çəkərək:

– Burax əlimi – deyə ona bağırdı.

Rəcəb Xasayın qolunu daha da şiddətlə çəkərək üzünə dik-dik baxdıqdan sonra:

– Mənə bax, yoxsa ürəyini o kafir oğlu müəllim yeyib? Ona uyduğunu bilsəm, inan ki, səni sağ qoymaram.

Xasay yenə cavab vermədi. Rəcəb əli ilə Badama və Zinyətə işarə edərək acıqlı səslə: "Çıxın burdan!" deyə bağırdı. Badam və Zinyət otaqdan çıxdıqdan sonra o, Xasayın qolundan tutub özünə tərəf çəkdi:

– Oğlum, sənin qeyrətin yoxmu? – deyə Xasayı dilə tutdu – məni işimdən, gücümdən, ev-eşiyimdən qaçaq salan, səni üç ay qazamata salan bu kafir oğlu müəllim döyüldü? Ondan intiqam almasan haram olsun sənə Balakişinin çörəyi.

– Yaxşı, de görüm fikrin nədir? – deyə Xasay onun düşündüklərini öyrənmək istədi.

Rəcəb Xasayın bu sözlərindən ürəkləndi. Məqsədinin baş tutduğunu görüb danışmağa başladı:

– Bax, belə oğlum... İndi məsələni sənə başa salaram. Bu gecə onlar evdə olmayacaq. Xəbər tutmuşam, teatra gedəcəklər.

Xasay həyəcanla: "Kim?" – deyə soruşdu. Rəcəb çox sakit halda:

– Sənin kafir müəllimin. Bu gecə arvadı ilə bərabər "Nərgiz" operasına gedəcəklər. Evdə iki uşağı, bir də qoca qulluqçu qalacaq. Bu saat qulluqçudan başqa evdə heç kəs yoxdur. Əgər kişisən, bir iş elə.

Rəcəbin müəllimi Kamilə nə etmək istədiyi məsələsi Xasayın fikrini tamamilə cəlb etmişdi. O, Rəcəbin necə intiqam almaq istədiyini bilmək üçün bir qədər özünü topladı və gözucu onu süzərək:

– Nə iş? – deyə soruşdu.

– Qalx, bərabər gedək, qulluqçu mətbəxə keçdiyi zaman yan qapıdan girib evdə gizlən. Gecə onlar getdikdən, uşaqlar və qulluqçu yatdıqdan sonra mən bir nəfərlə gələrəm. Sən qapını açarsan, ona elə dağ çəkərəm ki, ölüncə yadından çıxmaz!

– Nə dağ çəkərsən?

– Əl-ayağa dolaşmasın deyə əvvəlcə iki balasını, qoca qulluqçunu boğarıq. Sonra ürəyimiz istədiyi qədər qiymətli şeylərdən götürüb gedərik. Daha nə istəyirsən?

Xasayın vücudu titrədi; nə edəcəyini büsbütün çaşırmışdı. Ən sevimli müəllimi Kamilin ailəsini gözləyən bu faciənin qarşısını almaq üçün bir çarə düşünürdü. Zehninə gələn bir fikirdən Xasayın qəlbi şad oldu. Öz-özünə: "Mən müəllimi qurtarmalıyam" – dedi. Rəcəb əli ilə onun çiyninə vuraraq:

– Hə, hə, Xasay, nə deyirsən? Razısanmı? – deyə soruşdu.

Xasay qəti və yavaş bir səslə:

– Razıyam – dedi.

Rəcəb Xasayın başını qucaqlayaraq:

– Sənin heç qiymətin yoxdur, qoçaq oğlum, gör sənə oradan nələr gətirəcəyəm – dedi.

Şəhərdə yaşamaq ona yaramadığından anlamış olduğundan Rəcəb yaşına və qiyafəsinə uyğun yeni bir pasport ələ keçirmişdi. O, müəllim Kamildən həm intiqam almaq, həm də oğurladığı şeyləri satıb başqa şəhərə qaçmaq istəyirdi.

Odur ki, Xasay razı olunca Rəcəb yerindən qalxdı, onun əlindən gülə-gülə tutub:

– Sən get, mən də arxadan gəlirəm. Ancaq ehtiyatlı ol – dedi.

Xasay qapıdan çıxdı. Onlar birbaş Kamil müəllimin evinə gəldilər. Böyük qapıdan girincə ikinci qata çıxdılar. Hər ikisi qapı ucunda durub gözləyirdi. Bir azdan xidmətçi Nataşa əlində qab-qacaq mətbəxə girdi.

Rəcəb əli ilə Xasayı itələyib tez qapıdan içəri soxdu. Xasay yataq otağında çarpayı altında gizləndi. Bir azdan sonra qulluqçu Nataşa yemək otağına girdi. Stolun üstünə süfrə saldı, qabları, çəngəl-bıçaqları təmizləyib oxuyurdu. Bu zaman uşaqlar əllərində kitab çantası gülüşə-gülüşə, bir-birini qova-qova dəhlizə girdi. Nataşa onları görüncə:

– Oy... Mənim göyərçinlərim, qaranquşlarım, – deyə uşaqları qarşıladı. Hər ikisi kitabları pəncərəyə qoyub dəhlizə çıxdı və bir-birini qovalayıb oynamağa başladılar. Bir az sonra Kamil və yoldaşı Zümrüd gəldi. Yemək otağı şənləndi.

Xasay çaşmışdı. Onun uşaq qəlbi sürətlə çırpırdı. Zira o bu əhvalatı Kamilə nə zaman və harada anladacağını aydınlaşdıra bilmirdi. Həm də əhvalatı kimsəyə sezdirmədən, bildirmədən söyləmək lazım idi... Yemək gəldi. Bütün ailə stol başına yığışıb yeməyə məşğul oldu. Nataşa şorba qabını stolun ortasına qoyub gülə-gülə:

– Bu gün sizə bir pazı şorbası bişirmişəm ki, bəyənəcəksiniz – dedi.

Yemək qurtardı. Kamil müəllim əlində qəzet yataq otağına keçdi. Qapını bağlayıb Xasayın gizləndiyi çarpayının üstünə uzandı və qəzeti açıb oxumağa başladı. Xasay yaman vəziyyətdə idi. Çarpayı altından çıxıb birdən-birə ona görünməkdən qorxurdu. Hər halda fürsət əldə ikən əhvalatı ona anlatmaqdan başqa çarə yox idi. Qorxa-qorxa başını çarpayı altından çıxarıb yavaşca: "– müəllim, müəllim," – deyə səsləndi. Kamil gözlərini qəzetdən ayırıb o tərəf-bu tərəfə baxdı, bir şey görməyib yenə qəzet oxumağa davam etdi. Xasay bu dəfə çarpayının altından çıxıb yerə çömbəldi. Əli ilə onun qolunu yavaşca çəkərək:

– Müəllim, bura baxın – dedi. Kamil diksindi və yerindən dimdik qalxdı. Xasayı görüncə heyrətindən gözləri iri-iri açıldı. Çarpayıdan özünü yerə atıb:

– Sən burada nə edirsən? – deyə soruşdu. Xasay əlini ağzına qoyub:

– Qorxmayın, müəllim, mən sizin uşaqlarınızı ölümdən qurtarmaq üçün gəlmişəm – dedi.

Kamilin heyrəti bir qat da artdı.

– Necə ölümdən? Bu nə sözdür? – dedi. – Sonra çarpayıların altına baxdı. Xasay yavaşca dedi:

– Qorxmayın, müəllim, heç kəs yoxdur. Mən bu gecə sizin ailəniz üçün hazırlanan fəlakəti xəbər vermək məqsədi ilə gəlmişəm. Siz bu gecə teatra gedəcəksiniz, atalığım Rəcəb isə intiqam almaq üçün bu

gecə qonaq gəlmək fikrindədir. O, evinizi talan etmək, uşaqlarınızı da boğub öldürmək istəyir.

Bu söz Kamilin başında ildırım kimi partladı, durduğu yerdə donub qaldı. Xasayı diqqətlə süzdükdən sonra:

– Bu məlumatı kimdən öyrəndin? – deyə soruşdu. Xasay əhvalatı olduğu kimi başdan-başa nağıl etdi. Kamil diqqətlə Xasaya baxdı. O, kiçik uşaqda bu qədər hünər və comərdliyə heyrət etdi və sonra əli ilə onun başını oxşayaraq:

– Sağ ol, Xasayım – dedi.

Xasayın gözləri birdən-birə yaşardı, başını yerə dikərək:

– Müəllim, mənim atamı da bu cani öldürmüşdür – dedi.

Boğazını tıxayan hıçqırıqdan Xasay sözünü bitirmədi, başını aşağı dikib durdu. Kamil ona təsəlli verdi. Sonra yerindən qalxıb əhvalatı telefonla cinayət axtarış idarəsinə bildirdi. Xasayı şkafda gizlətdikdən sonra yemək otağına keçdi. Zümrüd uşaqlara "Kim güclüdür?" kitabçasını analara məxsus dadlı bir şivə ilə oxuyurdu. Uşaqlar da gülüşə-gülüşə, sevinə-sevinə nağılı dinləyirdi. Kamil onların yanında oturdu. Zümrüd nağılı bitirincə uşaqlar kitablarını götürüb dəhlizə qaçdılar. Zümrüd qorxmasın deyə, Kamil müəllim əhvalatı ona çox ehtiyatla anlatmağa başladı. Zümrüd qorxudan zəfəran kimi saraldı. Kamil ona ürək verib dedi:

– Daha nədən qorxursan, canilər artıq ovcumuzun içindədir.

Kamil müəllim sözü bitirməmişdi ki, qapı döyüldü. Kamil müəllim tez qalxıb qapını açınca kəndli qiyafəsində olan bir kişi:

– Müəllim Kamilin evi budurmu? – deyə soruşdu.

– Budur, yoldaş.

– Mən cinayət axtarış idarəsindən gəlmişəm.

Kamil müəllim məsələni anladı, onun qiyafəsini gülən gözləri ilə süzdükdən sonra: "Buyurun, buyurun", – deyə içəri aldı. Zümrüd onu görüncə dimdik ayağa qalxdı; heyrətlə açılan qumral gözlərini ona dikərək:

– Kamil, bu kimdir? – deyə soruşdu.

Kamil gülümsəyərək:

– Qorxma, dostdur – deyə qonağı öz yazı kabinəsinə apardı. Əhvalatı başdan-başa olduğu kimi ona anlatdı. Agent heyrətlə Kamilin üzünə baxıb:

– Afərin o uşağa, sizi bu bəladan yaxşı qurtarıb, – dedi. – Ancaq bu Rəcəb qonağımız belə oğurluğu tək başına etməz; şübhəsiz onun yoldaşları da var. Adamlarımız binanı nəzarət altına almışlar. Onlar küçə başlarında və müxtəlif yerlərdə bu evin qarovulunu çəkirlər. Hələ sizin teatra getməyinizi dörd gözlə gözləyəcəklər. Ona görə ehtiyatlı olmalısınız. Siz uşaqları, qulluqçunu həyətdə ən çox inandığınız bir ailəyə göndərin; indicə agentlərimiz gələcək. Biz hər işi yoluna qoyarıq. Siz teatr bəhanəsi ilə dostlardan birinin evinə gediniz. Oğrular yaxalandığı zaman telefonla sizə xəbər verərik.

Agent sözünü bitirməmişdi ki, qapı döyüldü. Kamil qapıya getdi. Qoltuğunda bağlı olan bir kişi:

– Kamil müəllimin evi budurmu? – deyə soruşdu.

Kamil gülə-gülə onu da kabinetinə aldı. İki agent şən-şən bir-biri ilə görüşdü. Oturub danışdılar.

Axşam olmuş, hava qaralmağa başlamışdı. Uşaqlar dəhlizdə məşğul idi. Azər taxta mişarlayır, Zivər də böyük rəhbərlərin rəsmləri ilə guşəsini bəzəyirdi.

Zümrüd: "Azər, Zivər" – deyə bağırdı. Hər ikisi qaça-qaça gəldilər. Zümrüd şəfqətli gözləri ilə onları süzüb:

– Balalarım, bu gecə biz teatra gedəcəyik. Nataşa da evdə olmayacaq. Biz gəlincə siz qonşumuz Murad əmigildə qalacaqsınız. Qızı Zərifə sizə yaxşı nağıllar söyləyəcək.

Hər iki uşaq razı oldu. Sevinclərindən sıçradılar. Zümrüd uşaqları qonşu Muradın evinə gətirdi. Uşaqların gecə orada qalmasını qonşu məmnuniyyətlə qəbul etdi. Müxtəlif qiyafələrdə iki agent daha gəldi. Kamil Xasayı şkafdan çıxarıb onlarla tanış etdi. Agentlər Xasayı böyük hörmətlə qarşıladılar. Teatr vaxtı yaxınlaşmışdı. Kamil Zümrüdlə hazırlanıb qapıdan çıxarkən Nataşaya:

– Bura bax, əzizim, sən bu gecə mətbəxdə yatacaqsan, – dedi.

Nataşa düşüncəli gözlərini Kamilə dikib soruşdu:

– Sözüm yox, yataram, ancaq bu nə üçündür?

– Onu sabah biləcəksən.

Kamil Zümrüdlə bərabər çıxıb getdikdən sonra agentlərdən birisi soruşdu:

– Xasay, bizim çağırılmamış qonaqlarımız nə zaman gəlməlidirlər?

Xasay cavab verdi:

– Onlar küçədən fit çalıb gəldiklərini mənə xəbər verəcək.

Vaxt keçmişdi. Hamı diqqət kəsilmişdi. Bu vaxt qapıdan fit səsi eşidildi. Xasay: "Gəldilər, gəldilər!" – deyə yerində fırlandı. Yavaş-yavaş qapıya getdi. Bir azdan sonra qapını yavaşca açdı. Qonaqları içəri aldı. Rəcəb özü ilə bərabər bir nəfər də gətirmişdi. Otağa girincə Rəcəb soruşdu:

– Uşaqlar hansı otaqda yatır?

Xasay yavaşca:

– "Bu otaqda", – deyə əli ilə yataq otağını göstərdi. Rəcəb yoldaşı ilə bərabər otağa girmək istərkən agentlər hər tərəfdən onları əhatə etdilər.

Rəcəb və yoldaşı qorxudan donub qaldı. Xasay telefonla canilərin tutulduğunu Kamil müəllimə bildirdi. Geri döndüyü zaman agentlər artıq ilk sorğu-suallarını başlamışdılar. Agentlərdən biri Rəcəbdən soruşdu:

– Aşağıda daha neçə yoldaşınız var?

Rəcəbdən cavab çıxmadı. Agentlərin təkrar səyləri də fayda vermədi. Rəcəb gözlərini yerə dikib dururdu. Bu arada onun gözləri Xasaya sataşdı. Kinli baxışlarla onu yeyəcək kimi süzərək:

– Yaxşı, Xasay. Əlbət bir gün sənlə də görüşərik – dedi.

Xasay acı-acı gülümsəyərək:

– Get, artıq sən mənimlə heç bir zaman görüşə bilməyəcəksən, bax, intiqamı belə alarlar – dedi.

Bu zaman başqa bir agent daha gəldi, içəri girincə yoldaşlarına:

– Haydı, artıq gedə bilərik – dedi.

Agent sözünü bitirməmişdi ki, Kamil müəllim daxil oldu. Xasay ona gülə-gülə:

– Müəllim, evinizdə qonaqlar gəlmişlər, siz harda gəzirsiniz?

Kamil istehzalı bir təbəssümlə:

– Mən də bunu bilib onlara hörmət göstərmək üçün gəldim.

Səs-küyə qulluqçu Nataşa gəldi. İçəri girincə qorxudan geri çəkilərək: "Bu nədir? Nə olmuş?" – deyə Kamildən soruşdu. Kamil gülə-gülə:

– Nataşa, günəşdən qaçan yarasalardır, evimizə dolmuşdur. Vaxtında xəbər tutmasaydıq, bu gecə sənin də işin xarab idi.

Nataşanın qəlbi titrədi, qorxulu baxışlarla xuliqanları süzdükdən sonra geri çəkilib xaç vurdu. Kamil ona baxıb gülə-gülə:

– Ey qoca dindar, səni o dəmir parçası deyil, bax, bu aslan ürəkli uşaq qurtardı – dedi.

XIV

Xasayın Rəcəblə bərabər hara və nə üçün getdiyini bilmədiyindən Badam çox rahatsız idi. Oğlunun yolunu çox gözlədi, gəlib çıxmadı. Onun səhərə qədər gözlərinə yuxu girmədi. Rəcəb qaçaq olduğu gündən evə qarşı çox soyuq idi. Evin bütün zəhməti onun üzərinə düşmüşdü. Bir tərəfdən Rəcəbin qapıçılıq vəzifəsini görür, küçəni, həyəti süpürüb təmizləyir, bir tərəfdən qonşulara su daşıyır, boş vaxtlarında da qapıda qutusunu qarşısına qoyub alverini edirdi. İşə alışmamış olan Badam bu ağırlıqların altında yorulub əzilirdi. O, səhərə qədər öz vəziyyətini və Xasayı düşündü.

Badam səhər yerindən xəstə kimi qalxdı. Həyətə çıxdığı zaman onu Xasayla Kamil müəllim və bir də tanımadığı bir kişi qarşıladı. Badam Xasayı görüncə:

– A üzü qara, sən harda idin? Bu gecə səhərə kimi gözlərimə yuxu getməyib – deyə soruşdu.

Xasay gülə-gülə:

– Oğruların ovuna çıxmışdım – deyə cavab verdi.

– Necə yəni oğruların ovuna? Rəcəb necə oldu?

– O getdi... bir də onu görməzsən!..

Badam iki əli ilə dizlərinə vurub:

– Vay, yoxsa başını batırdınız? Mən başıma gələni bilirdim – deyə ağlamağa başladı.

Kamil müəllim əlini onun çiyninə qoyub dedi:

– Badam bacı, sənin ərə getdiyin o kişi bilirdinmi kimdir?

Badam bu sorğudan pozuldu:

– Necə kimdir? Sənin kimi bir adamdır.

– Yox, mənim kimi adam deyil, sürgündən qaçmış, kəndin məşhur qolçomağıdır; əsil adı Mahmuddur. Bu gecə oğurluq edərkən tutulmuşdur.

Badam gözləri ilə yeyəcək kimi Kamil müəllimin üzünə baxdı. Birdən iki əli ilə başına vurub:

– Vay başıma kül, evin yıxılsın evimi yıxan, mən bilirdim sən o kişini dolaşdırıb işə salacaqsan, – deyə hönkür-hönkür ağlamağa başladı. Xasay irəli gəlib anasını sakit etməyə çalışdı:

– Onu mən dolaşdırdım, mən!

– Doğru deyir, Badam bacı, sağ olsun Xasay, o olmasa idi, bu gecə evimə girib uşaqlarımı öldürəcək, var-yoxumu isə talan edəcəkdilər.

– Mənim əlimlə o müəllimdən intiqam almaq istəyirdi. Amma mən ondan qoçaq çıxdım.

Badam ağlamaqda davam edirdi. Kamil müəllim bir az yumşaldığını görüb Badamı dilə tutmağa çalışdı:

– Ağlama, Badam bacı, sevin, elə bir adamın əlindən salamat qurtarmağınız böyük şeydir. De görüm, Xasayın atasını kim öldürdü? Bilirsənmi?

Badam yaşlı gözləri ilə heyrətlə Kamil müəllimə baxdı. Yenə başını aşağı dikib cavab vermədi.

Xasay acıqlı bir səslə:

– Atamın da intiqamını aldım, – dedi.

Kamil Badamın əlindən tutub yanındakı kişi ilə bərabər həyətdə böyük ağac altındakı skamyaya oturdular. Kamil sözə başlayıb dedi:

– Badam bacı, o kişinin tutulması sizin üçün böyük xoşbəxtlikdir. O, nə səni, nə də uşaqlarını ağ günə çıxara bilməzdi. Sənə gözəl bir iş tapmışam, boynundan asdığın bu kiçik qutu Xasayı, Zinyəti yaşada bilməz. Səni çit fabrikinə verəcəyəm. Bax, yoldaş Mustafa fabrikin müdiridir. Ona zəhmət verib bura gətirmişəm.

Mustafa Kamilin sözünə qüvvət verdi:

– Bəyəndiyin qulluğu verəcəyəm. Gözüm də həmişə üstündə olacaq, arxayın ol.

– İçində gözəl bufeti, aşxanası, radiosu, qısası, hər səliqəsi var. Yemək vaxtlarında sənə Qurban çalacaq, Cabbar dayı oxuyacaq, daha nə istəyirsən?

Badam başını qaldırıb cavab vermək istərkən Mustafa yoldaş təzədən sözə başladı.

– İş çətin deyil, hər halda üçüncü qatlara su daşımaqdan, küçə, həyət süpürməkdən, qutuda tum və papiros satmaqdan həm yaxşıdır, həm də qolaydır.

Badam yenə danışmaq istədi. Mustafa ona bu dəfə də imkan verməyib dedi:

– Özünə də fəhlə pasyolkasında iki gözəl otaq verəcəyəm. Daha nə deyirsən?

– Badam bacı, daha nə istəyirsən? Kişi sənə qulluq verir, mənzil verir. Bu nədir, diləngi torbası, ayıb deyilmi? Sənin Xasay kimi oğlun, Zinyət kimi qızın var!

Badam hər tərəfdən üzərinə yağış kimi yağan bu sözlərin qarşısında donub qaldı. Danışmağa artıq bir söz tapmadı. Başını yavaşca tərpədib:

– Nə deyirəm, get deyirsiniz gedərəm – dedi.

Kamilin gözləri sevincindən parladı, məmnun baxışlarla Mustafaya baxdı. Sonra Badamın əllərini əlləri içinə alıb dedi:

– Sağ ol, Badam bacı, sən Xasayı diriltdin. Qalx, hazırlan, Mustafa yoldaşla bərabər fabrikə get.

XV

Badam təzə xidmətindən çox məmnun idi. "Fabrik işlərinin bu qədər maraqlı olduğunu bilmirdim, yoxsa çoxdan girmişdim" – deyirdi. O indi iclaslara gedir, yoldaşları ilə yarışır, staxanovçu olmağa çalışırdı. Fabrik həyatı, əmək və sənət onun görüşünü, xasiyyətini, vərdişlərini gündən-günə dəyişirdi. O, indi əvvəlki tənbəl, bacarıqsız, biliksiz Badam deyildi; girir-çıxır, yeni həyat və quruluşun hər üzünü, hər səhifəsini öyrənməyə çalışır. savad məktəbinə gedirdi.

Badam fabrikdə təmizlik briqadasına üzv seçilmişdi. Briqada üzvləri qərara almışdı ki, əvvəlcə öz evlərini gəzsinlər. Bu qərar Badamı çox qorxutmuşdu. Özü briqada üzvü olduğu halda, ev-eşiyi təmiz olmazsa, yoldaşlarının yanında qızaracağından qorxurdu. Odur ki, işdən evə gəlincə ev-eşiyi süpürdü, təmizlədi, şeylərin üstünü sildi. Xasayın və Zinyətin iş köynəyini dəyişdirdi. Stolun üstünə yeni süfrə sərdi, çarpayılara ağ mələfə çəkdi. Divardan üç üz silən asdı. Bu çalışmalarda qızı Zinyət də ona kömək edirdi. Badam evinə-eşiyinə baxıb sevinə-sevinə:

– Doğrudan da, təmizlik yaxşı şeydir – dedi. Sonra boş çiçək qablarını Xasaya və Zinyətə verdi. Bağçaya gəldilər. Saxsıları torpaqla doldurdular, hər birinə bir çiçək əkdikdən sonra sulayıb pəncərəyə qoydular. Xasay heyrətlə otaqlara baxdıqdan sonra gülə-gülə:

– Ana, otaqlarımız indi nə yaxşıdır, baxdıqca adamın ürəyi açılır – dedi.

Zinyət də Xasayın sözünü təsdiq etdi:

– Doğrudur, təmizlik ürək açır.

Xasay tez mətbəxə qaçdı, məktəbin ona bağışlamış olduğu dülgərlik şeylərini bir qutuda gətirib dəhlizə qoydu. Özünə bir guşə düzəltdi; divara şəkillər yapışdırdı. Sonra mətbəxdən taxtalar götürüb işləməyə başladı.

– Xasay, nə qayırırsan? – deyə Zinyət qardaşının məqsədini bilmək istədi. Xasay işləyə-işləyə cavab verdi:

– Özümə yazı stolu qayırıram.

Xasay işləyirdi. Zinyət ayaqda durub onun çalışmasına baxırdı. Badam da açıq pəncərəyə söykənib dərsini hazırlayır və arabir qələtlərini Zinyətdən, Xasaydan soruşurdu.

Kamil müəllim Xasayın ailə həyatının gündən-günə yaxşılığa doğru irəlilədiyini bilirdi. Ev tərbiyəsi, ailə quruluşu həyatının ona gözəl təsir edəcəyindən əmin idi. Bir tərəfdən də öz nəzarətini onun üzərində artırmışdı. Onu evdə yoxlamaq üçün tez-tez müxtəlif briqadalar göndərir, hər tərəfdən ona təsir etməyə çalışırdı.

Badam fabrikdən təmizlik briqadası gözlərkən məktəbdən səhiyyə briqadası gəldi. Sədr Xasayı işləyən görüncə: "Afərin Xasay, işlə, işlə" – dedi. Badam irəli gəlib xoş üzlə onları qarşıladı, dörd-beş ay əvvəl qapıdan qovduğu briqadanı hörmətlə qəbul etdi.

– Buyurun, baxa bilərsiniz.

Briqadanın sədri otaqlara diqqətlə baxdıqdan sonra:

– O evdəki təmizliklə bu evdəki təmizlik, o qəbul ilə bu qəbul arasında nə böyük fərq var. Sizi bu sürətlə dəyişdirən qüvvətə afərin, sağ ol, Badam bacı – deyə otaqdan çıxdı.

Briqada getdi. Zinyət, Xasay və Badam məmnun halda bir-birinə baxdılar. Zinyət dedi:

– Ana, nə yaxşı ki, bu gün otaqlarımızı təmizləyib bəzəmişdin, yoxsa utanacaq idik.

Xasay anasını qucaqlayıb:

– Ana, otaqlarımızı həmişə belə təmiz saxla – dedi.

Badam Xasayın başını sinəsinə sıxıb cavab verdi:

– Yaxşı oğlum, sən ağıllı ol, dərslərinə yaxşı çalış, müəllimlərindən üzünə söz gəlməsin, mən otaqlarımızı həmişə təmiz saxlaram.

Badam sözlərini hələ bitirməmişdi. Kamil müəllim əlində bir bağlı içəri girdi. Görüşdülər. Əlində iri qəzetlərə bükülmüş bağlını Xasaya uzadıb:

– Al, bunu sənə Azərlə Zivər göndərmişdir – dedi.

Xasay bükülünü alıb müəlliminə təşəkkür etdi.

Badam:

– Oğlum, görürsənmi? Sən müəlliminin bu qədər yaxşılığından necə çıxacaqsan?

– Xasay yaxşılıq altında qalan oğul deyil. O mənim yaxşılığımın əvəzini artıqlaması ilə qaytaracaq.

Bu sözləri deyib Kamil müəllim üzünü Xasaya tutdu:

– Xasay, bilirsənmi mən nə üçün gəlmişəm?

Xasay diqqətlə onun üzünə baxdı. Kamil müəllim ciddi bir tövr almışdı. O bir az susdu, sonra təkrar sözə başladı:

– Bu gün sənin lə ciddi danışmağa gəlmişəm. Badam bacı, sən də fikir ver. Müəllimlərdən bir qismi sənin düzələcəyinə inanmır. O gün bu xüsusda müəllimlərlə yenə danışırdım. Hamı deyirdi: "ondan adam olmaz, məktəbin intizamını pozur, dərslərinə çalışmır, onu qovmaq lazımdır". Mən razı olmadım. Bir ay vaxt almışam, bu bir ayda sən tamamilə dəyişməlisən. Bu sözə nə deyirsən?

– Nə deyəcək? Sən ona atalıq etmisən, o sənin sözünü yerə salsa, gərək adam olmasın – deyə Badam dərhal cavab verdi.

– Əvvəlki Xasay vardı ha, bax, səni o Xasay kimi görmək istəyirəm, sən gərək mənim üzümü qızartmayasan.

Kamil müəllim bu sözləri o qədər təsirli söylədi ki, Xasayın qəlbi titrədi. O bir dəqiqə donub qaldı. Kamil müəllim sözünə davam etdi:

– Sən gərək mənim fikrimin doğru olduğunu isbat edəsən!

Xasay başını qaldırdı. Gözlərini Kamil müəllimin üzünə dikib cavab verdi:

– Söz verirəm! Qorxmayın, müəllim, Xasay sizi utandırmaz.

Kamil müəllim çox sevindi, üzünün çizgiləri, qaşının çatıqları açıldı, sevinclə parıldayan gözləri ilə Xasaya baxdı.

– Bir aya qədər səni yenə birinci görməliyəm. Buna da söz verirsən?

– Ona da söz verirəm.

Xasay son sözlərini daha qəti dedi. Kamil müəllim gülə-gülə Badama dedi:

– Badam bacı, nə deyirsən, Xasay kişi kimi mənə söz verir; onu heç kəs mənim kimi tanımır, onun bir sözü mənim üçün hər şeydən qiymətlidir. Sağ ol Xasay, deməli sabahdan mən papağımı yan qoyub gəzə bilərəm.

Badam məmnun bir tövrlə:

– Sən papağını yan qoy, qorxma, Xasay səni utandırmaz – dedi.

XVI

Kamil getdikdən sonra Xasay qəzetə bükülü bəxşişi açdı. Corabdan tutmuş papağa qədər hər şey alınmışdı. Hətta paltarın içərisinə bir qutu konfet də qoyulmuşdu. Xasay şeyləri götürüb o biri otağa keçdi. İş köynəyindən tutmuş coraba, çəkməyə qədər dəyişdi. Yeni paltarı ona çox yaraşırdı. Otaqdan çıxınca anası, bacısı ona baxıb "sağlıqla geyin" – dedilər.

Konfet qutusunu açdı, gülə-gülə:

– Konfet buyurun – deyə Badamın və Zinyətin qarşısına tutdu. Hər ikisi konfetdən götürüb:

– Ağzın şirin olsun, Xasay – dedilər. Özü də iki konfet götürüb qutunu Zinyətə verdi. Sonra oturub sabahkı dərslərini hazırladı.

Xasay səhər yeni paltarını geyib məktəbə getmişdi. O gün Xasay xeyli dəyişmişdi. Sinifdə, tənəffüslərdə özünü nümunəvi bir şagird kimi aparırdı. Dərslərdə fəal iştirak edib müəllimlərinə gözəl cavablar verirdi. Xasaydakı bu dəyişiklik hamının diqqətini cəlb etmişdi. Yersiz deyildi ki, bir müəllimin: "Xasay büsbütün dəyişib, yenə qiyamət edir", sözünə cavab verib müdir demişdi:

– Görəsən Kamil yenə nə sehr eləyib.

Xasay gündən-günə dəyişdi, hər sahədə özünü göstərməyə başladı. Müəllimlər otağında onun haqqında danışmaq adi bir şey olmuşdu.

Xasay məsələsi hamıdan çox Mirzə Rəhimi maraqlandırırdı. Onun bitməz-tükənməz şikayətləri kəsilmiş, Xasaydakı bu dəyişikliyə heyrət edirdi. Bir gün müəllimlər otağında gülə-gülə Kamilə yanaşdı. Əlini onun çiyninə qoyub yavaşca dedi:

– Kamil, sən bu Xasayı belə necə dəyişdirdin: Bu mənə bir möcüzə kimi gəlir. De görüm nə sehr etdin?

– İnsan bir gündə dəyişməz, bir günə dəyişə bilmək üçün əvvəlcədən min-bir şərait hazırlamaq lazımdır. Yoxsa mənim nə sehrim var, nə də əfsunum. Bir də onu yalnız mən dəyişmədim, bu günkü sosializm quruluşu, sosializm şəraiti və Xasayın bu mühitdən aldığı istedad və qabiliyyəti dəyişdirdi. Mən bir müəllim sifətilə yalnız öz vəzifəmi yerinə yetirməklə onun dəyişməsinə sürət və hərəkət verdim.

Mirzə Rəhim Kamili şəfqətli baxışlarla süzərək düşüncəli gözlərini bir an yerə dikdi. Sonra başını yenidən qaldırıb:

– Kamil! – dedi – Xasay gözümün qarşısına gəldiyi zaman bütün müəllimlər, xüsusən sən nəzərimdə o qədər böyüyürsən ki, otuz illik stajım olmağına baxmayaraq sizdəki bu fədakarlığın qarşısında kiçilirəm. Gənc bir müəllimdə bu qədər səbir, bu qədər mətanət, öz vəzifəsinə qarşı bu qədər sevgi və məhəbbət, bu sarsılmaz iradə və istək nə böyük şeydir! Heç bir dövrdə, heç bir tarixdə heç bir millətin müəllimləri bu qədər fədakarlıq etməmiş və edə bilməz!

Xasayın adı yenə əlaçılar sırasında idi. O bununla kifayətlənməyib yoldaşlarını yarışa çağırdı. Öz sinfindən üç zəif yoldaşını yedəyə aldı. Pioner təşkilatında və başqa ictimai işlərdə daha fəal çalışmağa başladı. Kamil müəllim bunları gördükcə, eşitdikcə sevincindən dərisinə sığmırdı.

Xasay sinif nümayəndəsi seçilmişdi. Bundan sonra sinfin intizamı daha da yüksəlmişdi. O, böyük tənəffüslərdə yoldaşlarını müxtəlif oyunlarla elə gözəl məşğul edirdi ki, şagirdlər və növbətçi müəllimlər ondan çox razı qalırdı. Bütün müəllimlər onu siniflərdə bir nümunə göstərirdilər.

Xasay müdirin də diqqətini cəlb etmişdi. O, məktəbin intizamını və dərslərin keyfiyyətini yüksəltmək fikri ilə nümunəvi bir əlaçı kimi Xasayı bütün siniflərdə göstərmək istəyirdi. Odur ki, Xasayı öz otağına çağırdı. Müəllimlər onu məhəbbətlə qarşıladılar, Xasaya lazım olan təlimatı verdilər. Müdir və müəllimlər onu təntənə ilə siniflərdən birinə apardılar. Müdir keçmiş Xasay ilə indiki Xasay arasındakı fərqdən, bu gün onun bütün şagirdlərə bir nümunə olmasından danışdı. Sonra sözü Xasaya verdi.

– Müdirimiz söylədiyi kimi – deyə Xasay danışmağa başladı, – mən zərərli təsirlərə qapılmışdım. Müdir və sevimli müəllimlərimin çalışması ilə artıq o qorxunc təsirlərdən qurtuldum. Kamil müəllim mənə atalıq etdi. Əlimdən tutub yuvarlandığım uçurumdan məni qurtardı. Bu gün mən öz sinfimizdə əlaçıyam. Mənə çəkilən zəhmətlərə

nisbətən bu mənim üçün azdır. İndi bütün sinifləri, qısası, bütün məktəbi yarışa çağırıram.

Buna bənzər görüşlər təxminən bütün siniflərdə təkrar oldu.

Xasayın adı bütün məktəbi basmışdı. Yarışda bütün məktəbdə birinciliyi qazanmış, adı dillərdə söylənirdi. Onun şəkli, qısaca tərcümeyi-halı ilə birlikdə yerli mətbuatda dərc olunmuş, bu məlumat bütün respublikalara göndərilmişdi.

Bir gün Voroşilov rayonundan təftiş üçün məktəbə inspektor gəlmişdi. O bir neçə siniflə tanış olduqdan sonra müəllimlər otağında üzünü müdirə tutub dedi:

– Məktəbinizin ən fəal, nümunəvi əlaçı şagirdi kimdir? Ona rayon maarif şöbəsi adından mədəni guşə bağışlayacağam.

Müdir və müəllimlər yer-yerdən Xasayı göstərdilər. İnspektor sabaha hazırlıq görmək üçün təlimat verib getdi. Müdir siniflərə girib sabah məktəbin ən nümunəvi şagirdinə maarif şöbəsi tərəfindən mədəni guşə bağışlanacağını söylədi, bütün şagirdlərin dərsdən sonra həmin şənlikdə iştirak etməli olduğunu bildirdi.

Siniflər bir-birinə dəymişdi. Hamı: "Mədəni guşə Xasaya veriləcək" – deyirdi.

Sabah dərslərin sonuna doğru avtobus gurultu ilə həyətə girdi. Musiqi dəstəsi hazırlandı. Məktəb müdiri, maarif şöbə müdiri, bir neçə müəllim həyətdə dolaşırdı. Şagirdlər bayram nəşəsi duymuş kimi dərslərin sürətlə bitməsini gözləyirdi. Zəng vurulunca bütün sinif nizamla həyətə çıxdı. Maarif şöbə müdiri qısa bir nitq söylədi. O, intizam, tərbiyə və dərs keyfiyyətinin əhəmiyyətindən danışdı. Sonra məktəbdə birinci əlaçı şagird olan Xasaya Voroşilov rayonunun maarif şöbəsi tərəfindən mədəni guşə bağışlandığını qeyd etdi. Bütün həyət coşdu. Musiqi qurtardı, şagirdlər və müəllimlər Xasayı əlləri üzərinə götürdülər Fotoqraf bu vəziyyətin rəsmini aldı. Şagirdlər həyətdən çıxdılar.

Küçə uşaqlarla dolmuşdu. Musiqi dəstəsi önə keçdi, sonra mədəni guşə aparan avtobus dayandı. Şagirdlər sıraya düzüldü. Kamil müəllimlə müdir Xasayı araya alaraq hərəkət etdilər. küçələrdə tamaşaçılar alay vurmuşdu. Elə nümayişlə Xasayın evinə gəldilər.

Musiqi dəstəsi və şagirdlər Xasaygilin həyətinə girincə bütün həyət axışdı. Badam və Zinyət sevincindən çaşıb qalmışdı. Şagirdlər həyətdə oynayır, Xasayı əlləri üzərində atıb-tuturdular.

Müdirin işarəsi ilə musiqi susdu. Şagirdlər şeyləri avtobusdan bir-iki düşürdülər. Gözəl çarpayı, əlüzyuyan, yazı stolu, iki skamya, ağ mərmərdən iri mürəkkəbqabı, üzsilən, üst köynəyi, ayaqqabı, idman şeyləri və bir çox başqa şeylər...

Şagirdlər şeyləri otaqlara daşıdı. Badamın göstərişi ilə onları otaqlara və dəhlizə yerləşdirdilər. Sonra təkrar həyətə çıxdılar. Musiqi yenidən başladı. Kamil müəllim qaytağı oyun havasını sifariş verdi. Birinci özü oynadı. Əvvəlcə müdiri, sonra da Xasayı oyuna çağırdı. qarşı-qarşıya oynadılar. Oyun bitən kimi müdir ucadan dedi:

– Yaşasın ailə və məktəb birliyi!

Kamil müəllim əlavə etdi:

– Yaşasın o birliyin meyvəsi olan əlaçı şagirdlərimiz!

– Yaşasın o birliyi yaradan müəllimlər! – deyə müdir iftixarla Kamil müəllimə baxdı.

1935


Romanlar

ƏSRİMİZİN QƏHRƏMANLARI

BİRİNCİ FƏSİL

Günəş sönmüş, qaranlıq çökmüş, üfüqlər qısalmışdı. Bakının göylərində mənzil etməyə qərar vermiş qara, sıx cənub buludları ucubucağı olmayan durna qatarı kimi düzülərək, aylı-ulduzlu göylə şəhərdən ucalan çıraq və elektrik işıqlarının bir-biri ilə öpüşməsinə mane olurdu. Xəzərin qoynuna girmiş Bakı gecəsini, pəncərələrdən, yaxın buruqlardan, Qara və Ağşəhər zavodlarından, çit və bez fabrikindən, limanlarda və dənizdə olan yük və minik gəmilərindən ətrafa yayılan elektrik və çıraq işıqları ala-qaranlıq bir səhərə çevirmişdi. Təsadüfi olaraq o işıq nümayişində bu gecə Hacı Kərimin də elektrik lampaları iştirak edirdi. Məsləhətə çağırılmış olan qohum-qardaş yemək otağına toplanmış, mavi abajurlu elektrik lampalarının parlaq şəfəqləri altında şirin-şirin danışıq aparırdı. Hörmət və adət üçün bu gecə toyun nə zaman və necə başlanması haqqında yaxın qohumların da fikri öyrəniləcək və onlarla birlikdə qərar çıxarılacaqdı.

Mina xanım qonaqları qabaqcadan söhbətə hazırlamaq istədiyindən məyus bir səslə:

– Hacı peyğəmbəri toy etmək istəyir, başınıza dönüm, bu fikri onun başından çıxarın – dedi.

Qohum-qardaş Mina xanımın sözünü tutaraq Ağamürsələ təntənəli bir toy etməyə söz verdi. Ancaq Hacı Kərim məclisdə olmadığından heç kəs məsələni qəti surətdə həll edə bilmir, hamı onun gəlməsini gözləyirdi.

Hacı mağazasından çoxdan gəlmiş, öz otağında gündəlik ticarətin haqq-hesabı ilə məşğul idi. Hacının gecikməsinə qonaqlardan artıq Mina xanım əsəbiləşir, qəlbindəki sıxıntı və çırpıntıdan rəng verib, rəng alırdı. Çünki Hacının evinə gəldiyi müddətdə o yalnız iki-üç dəfə belə gurultulu məclis görə bilmişdi. Bu gecə oğlu Ağamürsəlin toy məsləhəti gecəsi olmaqdan artıq onun üçün şadlıq məclisi idi. O, otaqlarını tərtəmiz süpürtmüş, sildirmiş, lazım olan bəzəyi vermiş, masa üzərinə incə naxışlı qələmkar süfrə sərmişdi. Mina xanım indi öz qonaqlarını yedirmək, içirmək, onlara qarşı olan hörmət və məhəbbətini